AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

26 avqust 2016-cı il № 53-56 (9059) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### TƏLİMDƏ NƏ QƏDƏR ÇƏTİN OLSA DA...

*Bu günlərdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Xəzər Dəniz Neft Donanmasında Fövqəladə Hallar Nazirliyi nümayəndələrinin iştirakı ilə yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqasının təlim-məşqi keçirilib.*

Səh. 3

### AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9 MİLYON 755 MİNİ ÖTÜB

*Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 49,9 min nəfər və ya 0,5 faiz artaraq bu il iyulun 1-nə 9755,5 min nəfərə çatıb.*

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin sıxlığı bir kvadrat kilometrə 113 nəfər olub. Əhalinin ümumi sayının 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Səh. 4

### HƏR ŞEY ÜRƏYİMİZCƏDİR

*Biz - Azərbaycan Dövlət Dəniz Akademiyasının bir qrup tələbəsi, artıq iki aydan çoxdur ki, Xəzər Dəniz Neft Donanmasının "Oktay Vəliyev" yedək-təchizat gəmisində istehsalat təcrübəsi keçirik. Təcrübəyə başlamamışdan öncə, gəmidə təhlükəsizlik qaydaları ilə bağlı təlimatlandırıldıq. 6 təcrübəçidən ikisi mexanik, dördü isə elektromexanik ixtisasının sirlərinə yiyələnir. Gündə 2 saat dərs keçir, 4 saat isə praktiki işlərlə məşğul oluruq. Qısa müddətdə dartma qüvvəsi 80 ton olan yedək-təchizat gəmisinin maşın və mexanizmləri haqqında kifayət qədər bilgi ala bilmişik.*

Səh. 5

### 60-DAN ÇOX XARİCİ GƏMİ BATIRILIB

*İndoneziyanın hökumət orqanları ölkəyə məxsus ərazi sularında qeyri-qanuni ovla məşğul olan 60-dan çox gəmini batırıb.*

"The Straits Times" qəzetinin yazdığına görə, gəmilərin batırılması İndoneziyanın müstəqilliyini qazanmasının 71-ci ildönümü ilə əlaqədar təşkil edilib.

Dəniz İşləri və Balıqçılıq Təsərrüfatı Nazirliyinin rəsmi nümayəndəsinin bildirdiyinə görə, əməliyyat səkkiz rayonda həyata keçirilib.

Səh. 7

### NƏ YORULUR, NƏ DƏ MAAŞ TƏLƏB EDİR

*Bəzilərinin arzuladığı, digərlərinin isə qorxduğu süni intellekt hər halda bəşəriyyət üçün müəyyən qədər təhlükəlidir, çünki onun ucbatından insanların bir hissəsi işsiz qalacaq.*

"planet-today.ru" saytı xəbər verir ki, "Telecom Daily" ekspertlərinin fikrincə, on il sonra süni intellekt onlayn nəşrlərdə jurnalistləri tam əvəz edəcək. Bundan sonra vəkillər və musiqiçilər işsiz qalacaq.

Səh. 8

# 1 QIZIL, QIZILA BƏRABƏR 7 GÜMÜŞ VƏ 10 BÜRÜNC MEDAL! ƏHSƏN SİZƏ!

## "Rio-2016"da Azərbaycan komandası 18 medal qazandı

*Azərbaycan idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir, bilir. Azərbaycanda idmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycanda, cəmiyyətdə önəmli bir ictimai amilə çevirmişdir. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var. İdmançılar cəmiyyətdə layiqli yer tutublar. İdmanla məşğul olmaq istəyənlərin sayı getdikcə artır. Bunun əsas səbəbi idmançılarımızın uğurlarıdır və idmançılara göstərilən dövlət qayğısıdır.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Avqustun 22-də Bakı vaxtı ilə saat 03:00-da Braziliyanın Rio-de-Janeyro şəhərindəki "Marakana" stadionunda XXXI Yay Olimpiya Oyunlarının möhtəşəm bağlanış mərasiminə start verildi.

Əvvəlcə sambaçıların ifasında Rionun görməli yerləri, Olimpiya halqaları təqdim olundu və musiqili hissə başladı. İyirmi yeddi uşağın ifasında Braziliyanın dövlət himni səsləndirildi və dövlət bayrağı qaldırıldı. Uşaqların sayı Braziliyanın 26 ştatı və 1 federal dairəsinin sayına uyğun seçilmişdi.

"Rio-2016"da iştirak edən ölkələrin bayraqları səhnəyə gətirildikdən sonra yarışın mükafatçılarının paradı maraqlı anlarla yadda qaldı.

Ölkənin tarixinin, qədim yaşayış məskənlərinin, qədim insanların çəkdiyi qayaüstü rəsmlərin canlandırıldığı növbəti hissənin davamında Braziliyanın toxuculuq sənayesinin inkişaf tempi təqdim olundu. Hissə Braziliyanın məşhur balet qrupunun çıxışı ilə yekunlaşdı.

Sonra marafon yarışının qalibləri mükafatlandırıldı. Qızıl medala Keniya idmançısı Eliud Kipçoqe sahib oldu. Efiopiyalı Feyisa Lilesa gümüş, ABŞ atleti Qalen Rupp isə bürünc medal qazandı. Medalları mükafatçılara Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastian Koe təqdim etdilər və Keniyanın dövlət himni səsləndirildi.

BOK-un Atletlər Komissiyasının yeni seçilmiş üzvlərinin təqdimatından sonra böyük yarışların ayrılmaz hissəsi olan könüllülərin bir qismi səhnəyə dəvət olundu və mükafatlandırıldı.

Olimpiya Oyunlarının vətəni sayılan Yunanıstanın dövlət bayrağının qaldırılması və dövlət himninin səsləndirilməsindən sonra BOK-un bayrağı endirildi. Olimpiya bayrağı 2020-ci ildə növbəti Olimpiadaya ev sahibliyi edəcək Tokio şəhərinin meri xanım Yuriko Koikoya təqdim olundu və Yaponiyanın dövlət himni səsləndirildi.

"Rio-2016"nın Təşkilat Komitəsinin sədri Karlos Artur Nuzman və BOK-un prezidenti Tomas Bax Olimpiadanın yüksək dostluq şəraitində keçdiyini, Rionun yeni tarix yazdığını və yarışın uğurlu təşkil olunduğunu diqqətə çatdırdılar.

Braziliyanın flora və faunasından bəhs edən hissə başa çatdıqdan sonra Olimpiya məşəli söndürüldü və tədbir karnavalla davam etdi.

Azərbaycan yığma komandası XXXI Yay Olimpiya Oyunlarına əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə – idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) ilə qatılmışdı. Bu, ötən Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur. Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olunmuşdu. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarının iştirakçısı idi. Rio-de-Janeyroda Azərbaycan güləş, gimnastika və boks yarışlarında olmaqla 3 hakimlə də təmsil olunmuşdu.




"Rio-2016" bir sıra özünəməxsus cəhətləri ilə əvvəlki olimpiadalardan seçilib. Belə ki, bu, Cənubi Amerikada keçirilən ilk Olimpiya Oyunlarıdır. Rio-de-Janeyronun dörd rayonunda - Deodoro, Barra, Kopakabana və Marakanada 17 gün davam edən Olimpiadada 306 yarış keçirildi və ümumilikdə 2102 medal sahiblərinə təqdim olundu. XXXI Olimpiadada rekord sayda - 206 ölkədən 11 mindən çox idmançı mübarizə apardı. İştirakçı 206 ölkədən başqa, Olimpiya qaçqın idmançılar komandası da mübarizəyə qoşulmuşdu. Olimpiya bayrağı altında mübarizə aparan bu komandanın tərkibində 10 idmançı yer almışdı. Onlardan 5-i Cənubi Sudandan, 2-si Suriyadan, 2-si Kongo Demokratik Respublikasından, 1-i isə Efiopiyadan idi. Olimpiadaya ən çox idmançı ilə qatılan ölkə ABŞ idi. Bu ölkə dördilliyin zirvə yarışına 554 idmançı ilə qoşulmuşdu. Okeaniya ölkəsi olan Tuvalu isə Olimpiadaya cəmi bir idmançı – 100 metr məsafəyə qaçış yarışında mübarizə aparan atlet Etimoni Timuani ilə qatılmışdı. Kosovo və Cənubi Sudan isə Olimpiadada ilk dəfə çıxış edirdi.

XXXI Yay Olimpiya Oyunlarında atletlər idmanın 39 növü üzrə mübarizə apardılar. Qolf 112, reqbi isə 92 illik fasilədən sonra yenidən Olimpiya Oyunlarının proqramına salınmışdı. Bütün yarışlar 37 arenada təşkil olunurdu.

Hesabında 46 qızıl, 37 gümüş və 38 bürünc olmaqla ümumilikdə 121 medal olan ABŞ Olimpiadanı birinci pillədə tamamladı. Böyük Britaniya 27 qızıl, 23 gümüş, 17 bürünc medalla (ümumilikdə 67) ikinci, Çin 26 qızıl, 18 gümüş və 26 bürünc (ümumilikdə 70) medalla üçüncü oldu.

İlk onluğu Rusiya (19-19-19), Almaniya (17-10-15), Yaponiya (12-8-21), Fransa (10-18-14), Cənubi Koreya (9-3-9), İtaliya (8-12-8) və Avstraliya (8-11-10) tamamlayır.

XXXI Yay Olimpiya Oyunları Azərbaycan olimpiya yığması üçün uğurlu oldu. "Rio-2016"da Azərbaycan komandası 18 (1 qızıl, 7 gümüş və 10 bürünc) medal qazandı. Komandamıza yeganə qızıl medalı taekvondoçu Radik İsayev qazandırdı. Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyumov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rütəm Orucov və Elmar Qasımov, qadın güləşçimiz Mariya Stadnik və kanoeçi Aleksandr Demyanenko yalnız final görüşlərində uduzaraq gümüş medala sahib oldular. Taekvondo yarışlarında Milad Beiqi Harçeqani və Patimat Abakarova, boksçu Kamran Şahsuvarlı, güləşçilər Rəsul Çunayev, Sabah Şəriəti, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov, avarçəkən İnna Osipenko-Radomskaya isə bürünc medalla kifayətləndilər. Medal sıralamasında Azərbaycan 39-cu oldu.

Tam heyətlə təmsil olunan sərbəst güləş yığmamız 2 gümüş və 3 bürünc medal qazanaraq olimpiadalar tarixində bir ilkə imza atdı. Qazanılan medalların sayına görə, yığmamız bütün komandaları qabaqladı. Altı pəhləvan ilə təmsil olunan komandalardan heç biri 5 medal qazana bilmədi. Belə ki, Rio Olimpiadasında Azərbaycanla yanaşı, Rusiya, İran, Monqolustan, Gürcüstan, Türkiyə və ABŞ sərbəst güləş komandaları da tam heyətlə iştirak edirdilər. Türkiyə, Rusiya və İran 3, ABŞ və Gürcüstan 2 medal qazana bildiyi halda, Monqolustan sərbəst güləş yığması Olimpiadanı medalsız tərk etdi.

Dünya Güləş Birliyinin ənənəvi qaydada tərtib etdiyi komanda sıralamasında da sərbəst güləş yığmamız birinci yeri tutdu. Komanda hesabında 42 xal toplayan yığmamız, İran (35 xal), ABŞ (32 xal) və Rusiyadan (31 xal) öndə qərarlaşdı. Bu nəticə ilə sərbəst güləşçilərimiz olimpiadalarda qazandığı medalların sayını 11-ə çatdırdı. Bunlardan 3-ü qızıl, 3-ü gümüş, 5-i bürünc əyarlıdır.

*(Davamı 2-ci səhifədə)*

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

**№ 306** **QƏRAR** **Bakı şəhəri, 15 avqust 2016-cı**

**"Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası"nın təsdiq edilməsi barədə**



"Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 40-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 yanvar tarixli 751 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

"Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

*Artur RASİ-ZADƏ,*
*Azərbaycan Respublikasının Baş naziri*

# 1 QIZIL, QIZILA BƏRABƏR 7 GÜMÜŞ VƏ 10 BÜRÜNC MEDAL! ƏHSƏN SİZƏ!

*(Əvvəli 1-ci səhifədə)*

Tarixində ilk dəfə Olimpiya Oyunlarında mükafat qazanan taekvondo üzrə Azərbaycan millisi isə "Rio-2016"da ən yaxşı yığmalardan biri oldu. Braziliyaya tam heyətlə - dörd idmançı ilə yollanan komandamız Cənubi Amerika ölkəsində 3 medal əldə etdi.

Səksən kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Radik İsayev XXXI Yay Olimpiya Oyunlarında Azərbaycanın yeganə qızıl medalına sahibi oldu.

Azərbaycan yığması bu göstərici ilə "Rio-2016"nın taekvondo yarışlarında dördüncü pillədə qərarlaşdı. Millimiz yalnız Koreya Respublikası, Çin və Böyük Britaniyadan geri qaldı. Avropada ikinci olan komandamız MDB ölkələri arasında isə birincidir.

Xatırladaq ki, taekvondo yarışlarında 64-ü kişi və 64-ü qadın olmaqla, ümumilikdə, 64 ölkədən 128 idmançı 8 çəki dərəcəsində mübarizə aparırdı.

Böyük Britaniyanın "The Telegraph" qəzeti "Rio-2016" Olimpiya Oyunlarında mükafat qazanan ölkələrin alternativ cədvəlini tərtib edib.

Nəşr Azərbaycanın Olimpiya millisini idmançı payına düşən medal sayına görə ən nəticəli komanda hesab edib. Əlli altı atletlə nəhəng turnirdə təmsil olunan ölkəmizin nisbətən az idmançı ilə yarışa qatıldığı vurğulanıb. Bu isə hər üç təmsilçimizin payına (0,3) bir medalın düşməsi deməkdir.

Azərbaycan eləcə də, qazanılan medalların ölkənin əhali sayı ilə müqayisə göstəricisinə görə səkkizinci yeri tutub. Rioda əldə edilən mükafat ölkənin hər bir milyon nəfəri üçün 1,87 medal payı sayılıb.

Oyunların yekunları ilə bağlı gənclər və idman naziri Azad Rəhimov jurnalistlərin suallarını cavablandırarkən yüksək nəticələr qazanan idmançılarımıza, eyni zamanda, Braziliyadakı nümayəndə heyətinə böyük dəstək verən azarkeşlərə dərin minnətdarlığını ifadə edib: "Həqiqətən də hər gün burada - uzaq Rioda biz onların dəstəyini, diqqətini hiss edir, çoxlu mesajlar alırdıq. Bakıdan çoxlu məlumatlar gəlirdi və sözsüz ki, bu dəstək bizim üçün də, idmançılarımız üçün də çox vacib idi. Düşünürəm ki, qazanılan qələbələrdə bu dəstək də böyük rol oynadı".

Olimpiya Oyunlarının idman aləmində ən mötəbər tədbir olduğunu vurğulayan nazir qeyd edib ki, idmançılarımız Azərbaycan tarixinə yeni bir səhifə yazıblar. Hər dörd ildən bir keçirilən bu nüfuzlu yarışlara idmançılar, idmanla bağlı olan insanlar, idman mütəxəssisləri - hamı çox ciddi hazırlaşır. "Bu, həqiqətən də Azərbaycan idmanının növbəti təntənəsidir və bu münasibətlə hamını ürəkdən təbrik edir, idmançılarımıza yeni uğurlar arzulayıram. İnanıram ki, onlar gələcəkdə də bütün xalqımızı və azarkeşləri sevindirəcəklər", - deyə A.Rəhimov bildirib.

Azərbaycan idmançılarının "Rio-2016"da qazandıqları fantastik göstəricilərin gözlənilən olub-olmadığına dair sualı cavablandıran Azad Rəhimov deyib: Biz ilk növbədə dünyanın, ölkə ictimaiyyətinin və mediasının, mütəxəssislərimizin bu göstəriciləri necə qiymətləndirdiklərinə baxırıq və belə bir təhlil çox vacibdir. Statistik rəqəmlər də çox önəmlidir. Sözsüz ki, 18 medal Azərbaycan üçün böyük nailiyyətdir. Azərbaycanın idman sahəsində effektiv bir dövlət olduğunu, idmançılarımızın bu göstəriciyə görə dünyada birinci yerdə qərarlaşdığını nəzərə alsaq deyə bilərik ki, qazanılan nəticələr heç də gözlənilməz deyil. Böyük Britaniyanın "The Telegraph" qəzetinin apardığı təhlillərə əsasən Azərbaycanın Olimpiya millisi idmançı payına düşən medal sayına görə ən nəticəli komanda hesab edilib. Medal sayı baxımından biz dünyada 207 ölkə arasında 15-ciyik. Bu, doğrudan da inanılmaz nəticədir. Avropa ölkələri arasında biz yeddinci, İslam dövlətləri arasında birinci, MDB məkanında ikinciyik. Medalın keyfiyyəti baxımından 39-cu yeri tuturuq.

İdmançılarımızdan kimi daha çox fərqləndirdiyi barədə suala cavab verən A.Rəhimov deyib ki, mükafat qazanan 18 idmançı arasında heç kimi fərqləndirmir. Onlar hamısı bizim qəhrəmanlarımızdır. Azərbaycan xalqının oğulları, vətəndaşlarıdır. Hamısı Azərbaycanı düşünürlər. Əsas məsələ də məhz budur.

Komandamızdakı legionerlərə gəlincə nazir qeyd edib ki, onlar da Azərbaycan vətəndaşıdır. Burada yaşayaraq, hazırlaşaraq medal qazanırlar. Bu, bütün idman növləri üçün böyük bir inkişafdır. "Biz həmin legionerləri dəstəkləyirik və onlara heç bir fərq qoymuruq", – deyə A.Rəhimov vurğulayıb.

1 qızıl, qızıla bərabər 7 gümüş və 10 bürünc medal! Rio-de-Janeyroda qazanılan bu nailiyyətlər bizə hədsiz sevinc bəxş etməklə yanaşı, həm də nikbinliyimizi xeyli artırıb. Deməli, 4 il sonra Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarında idmançılarımızın çıxışlarını daha böyük inamla izləyəcəyik. Sağlıq olsun!

***"DƏNİZ"***

**G Ü M Ü Ş**









**B Ü R Ü N C**












# OLİMPİYA ÇEMPİONU RADİK İSAYEVİN ZİRVƏYƏ GEDƏN YOLU

***Olimpiya çempionu olmaq hər bir idmançının ən böyük arzusudur. Azərbaycan taekvondoçusu Radik İsayev bu zirvəyə 27 yaşında çatıb. Bu parlaq qələbəsi ilə Braziliyada Azərbaycan bayrağını yüksəyə qaldıraraq, himnimizi səsləndirərək milyonlarla idman həvəskarına və xalqımıza hədsiz sevinc bəxş edib.***




Radik İsayev yəqin ki, həyatının ən unudulmaz günlərini yaşayır. Bəlkə də "Rio-2016"dək o qədər də tanınmayan idmançı bir gecədə məşhurlaşdı. Adını Azərbaycanın idman tarixinə yazdı. Prezident İlham Əliyev ona zəng edərək qələbə münasibətilə təbrik etdi. İdmançı üçün bundan böyük şərəf və xoşbəxtlik ola bilərmi?

Bu gün Radikin adı idman həvəskarlarının dilindən düşmür. Hamı onun həyat və mübarizə yolu ilə maraqlanır. Radik İsayevin Olimpiya Oyunları ərəfəsində AZƏRTAC-a verdiyi müsahibəyə nəzər salırıq. O inamla deyirdi ki, "Rio-2016" Olimpiadasının medalçıları sırasında yer alacağına iddialıdır. Həmin müsahibədən bir hissəni diqqətə çatdırırıq: "Ötən il ölkəmiz üçün çox uğurlu oldu. Yalnız taekvondo deyil, idmanın digər növləri üzrə də çoxlu qızıl medal qazandıq. İlk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi və bu mötəbər yarışda idmançılarımızın yüksək nəticələr qazanması hər kəsi sevindirdi. Taekvondo yarışlarında ölkəmizi yüksək səviyyədə təmsil etdik. Ancaq təbii ki, bunlarla kifayətlənmək olmaz. Bu il bizi daha çətin sınaqlar gözləyir. "Rio-2016" Yay Olimpiya Oyunlarına ciddi hazırlaşırıq. Yeganə məqsədimiz yüksək nəticələr qazanaraq xalqımızı sevindirməkdir. Bunun üçün çox çalışmaq və məqsədə doğru inamla addımlamaq lazımdır".

Doğrudan da Radik İsayev bu məqsədə nail olaraq xalqımıza gözlədiyi sevinci yaşatdı. "Rio-2016"-da yığma komandamıza yeganə qızıl medalı məhz o qazandırdı. Bu, həm də Azərbaycanın taekvondo tarixində ilk qızıl medal kimi xüsusi dəyərə malikdir.

Bu sevincli günlərdə Azərbaycanın taekvondo üzrə yığma komandasının böyük məşqçisi Elnur Amanovun da AZƏRTAC-a müsahibəsində dediyi sözlər yada düşür: "Taekvondo üzrə Azərbaycan yığması birinci Avropa Oyunlarında, sonuncu dünya və Avropa çempionatlarında, dünya kuboku yarışlarında uğurla çıxış edib. Çalışacağıq ki, Olimpiya Oyunlarında da medal qazanaq və nəticələrimizlə xalqımızı sevindirək".

Məşqçinin də gözləntiləri özünü doğrultdu. "Rio-2016"ya ilk dəfə tam heyətlə qatılan taekvondo üzrə komandamız bir qızıl, iki bürünc medal qazanaraq özünəməxsus rekorda imza atdı. Yarışlarda 80 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən dünya və Avropa çempionu, "Bakı-2015"in qalibi Radik İsayev isə bütün rəqiblərini məğlub edərək Olimpiya çempionu oldu.

Olimpiya çempionunun həyatından da bəzi ştrixləri xatırlamaq yerinə düşər. Rusiya Federasiyasının Dağıstan Respublikasının Mahaçqala şəhərində doğulan 27 yaşlı Radik Veleddin oğlu İsayev ailədə yeganə idmançı olub. Orta məktəbi Mahaçqalada bitirib, Moskva Dövlət Avtomobil və Yol Texniki Universitetinin məzunudur. Uşaq və yeniyetmə vaxtlarında idmana, xüsusilə, taekvondoya maraq göstərən Radik İsayev Azərbaycan Taekvondo Federasiyasının yığma komandasının tərkibinə 2012-ci ilin sonlarında daxil edilib. Gərgin məşq edən Radik İsayev qısa müddətdə milli komandamızın liderlərindən birinə çevrilib.

Valideynlər öz uşaqlarını pis vərdişlərdən uzaqlaşdırmaq üçün onlara adətən idmanla məşğul olmağı məsləhət görürlər. Balaca Radik bu məsələdə ata-anasını qabaqlayır. Daha çox futbol, müxtəlif döyüş növləri ilə məşğul olur, sonradan taekvondonu seçir. Dağıstanda güləş, cüdo daha populyardır. Ona görə də Radik İsayevin taekvondoya üstünlük verməsi orada təəccüblə qarşılanır. Buna baxmayaraq Radikin uğurları özünü çox gözlətmir. Dağıstan çempionatında üçüncü yeri tutaraq karyerasında ilk qələbə sevincini yaşayır.

Sonralar Rusiya çempionatında iki dəfə fəxri kürsüyə qalxan Radik İsayev 87 kiloqram çəki dərəcəsində 2010-cu ildə qızıl, bir il sonra isə gümüş medal qazanır. 2012-ci il London Olimpiadasına yollanacaq idmançıların geniş siyahısında adı olsa da, məşqçilər heyəti onu Böyük Britaniyaya aparmırlar. Layiq olduğu qiyməti almaması ona çox təsir edir. Bu hadisədən sonra Bakıdan aldığı dəvəti qəbul edərək Azərbaycan millisinin şərəfini qorumaq qərarına gəlir.

Komandamızın heyətində kifayət qədər uğurla çıxış etməyə başlayır. 2013-cü ildə Meksikada keçirilmiş dünya çempionatında bürünc, bir il sonra Bakıda keçirilmiş Avropa çempionatında qızıl medala layiq görülür.

Ümumiyyətlə, Radik beynəlxalq turnirlərdə keçirdiyi görüşlərin çoxunda qalib tərəf olub. Maraqlıdır ki, taekvondoçumuz iştirak etdiyi müxtəlif beynəlxalq turnirlərin bütün əyarlarda medallarını qazana bilib. Dünya və Avropa çempionatlarının, eləcə də bir çox beynəlxalq turnirlərin qalibi və mükafatçısıdır: 2014-cü ildə İranda "Fajr Cup" turnirində birinci, Niderlandda "Dutch Open", Ukraynada "Ukraine Open" turnirlərində ikinci, eləcə də 2015-ci ildə "Moldova Open"də, həmin il "Qatar Open"də birinci, Misirdə "Luxor Open"də ikinci, 2015-ci ildə Cənubi Koreyada hərbçilərin VI dünya oyunlarında üçüncü, həmin il Meksikada komandalararası dünya kubokunda birinci yer. Nəhayət, Radik ötən il Rusiyada keçirilmiş dünya çempionatının qalibi olur. Radik İsayev Dünya Taekvondo Federasiyasının Olimpiya reytinqinə əsasən, "Rio-2016" ərəfəsində üçüncü pillədə qərarlaşır. Bu uğurlarına görə, Gənclər və İdman Nazirliyi tərəfindən bir neçə dəfə ilin "ən yaxşı idmançısı" nominasiyası üzrə ilk 10 idmançı sırasında yer alır və xüsusi mükafata layiq görülür.

Həyat Radiki hələ yeniyetmə yaşlarında sınağa çəkib. Dağıstanda yetərli maliyyələşmənin olmaması istedadlı idmançının taekvondadan uzaqlaşmağa məcbur edir. Səbəbi isə anasının ağır xəstəlik keçirməsi olur. Onun müalicəsinə çoxlu pul lazım olduğundan Radik məşqləri dayandırıb zavodda işləməyə başlayır. Həmin müəssisə bir müddətdən sonra bağlanır. Özünə başqa iş axtarmazdan əvvəl idmana yenidən qayıdıb şansını bir daha sınamaq qərarına gəlir. Bu addımı özünü doğruldur. O, gərgin zəhməti hesabına maddi vəziyyətini yaxşılaşdıraraq ailəsinin dayağına çevrilir, həm də peşəkar idmançı kimi yetişir və bir-birinin ardınca qələbələr qazanır.

Təsadüfü deyil ki, "Rio-2016"-da qələbəni kimə həsr edirsən sualına R.İsayev belə cavab verib: "Birinci növbədə mərhum atama və ilk azarkeşim olan anama. Anam mənim ən əsas azarkeşimdir və medallarımı yığıb saxlayır. Mən hər dəfə yarışa çıxanda anam hamıdan çox həyəcanlanır. Bütün medallarımı və aldığım kubokları ayırdığı otağa yığır. Mənim əsas mükafatlarım anamın kolleksiyasına çevrilib".

Boyunun hündür olması Radikin üstünlüyüdür. Taekvondo əsasən ayaqlarla döyüşün ön planda olduğu idman növüdür. Taktikasına gəlincə, daha çox başa dəqiq zərbələri ilə tanınır. Radik üçün hər döyüş fərdi xarakter daşıyır və hər dəfə dayanq üzərində vəziyyətə görə seçimini edir. Buna daha çox təmkinli döyüş taktikası adı vermək olar. Həmin taktika keçirdiyi bütün döyüşlərdə öz müsbət nəticəsini göstərir. İdmançı üçün möhkəm irədə və qələbə əzmi də mühüm əhəmiyyətə malikdir. Biz bunu Radik İsayevin "Rio-2016"da keçirdiyi görüşlərdə bir daha yəqin etdik. Hesabda geridə olmasına baxmayaraq özündə güc tapır, qələbəyə inamını itirmir və son saniyələrədək mübarizəni dayandırmırdı.

Radik məşqləri əsasən səhər və axşam edir. Günün əsas hissəsini fiziki, nəzəri hazırlığa sərf edir, istirahətə demək olar vaxtı qalmır. O, əsl idmançı kimi çalışmaqdan zövq alır, ustalığını günbəgün artırmağa çalışır. Çünki bilir ki, qələbə qazanmağın başqa yolu yoxdur. İdman onun peşəsidir, karyerası məşqlərdən asılıdır. Radik İsayev dürüst, dönməz, nəzakətli, məğrur və çalışqandır. Bir taekvondoçu kimi gücünü yalnız döyüş meydanında göstərən əsl qafqazlıdır.

O, son müsahibəsində uğur qazanmasının səbəblərinin birini döyüş vaxtı məşqçilərin tapşırıqlarını yerinə yetirməsi ilə izah edir. Sözsüz ki, onun uğurlarında taekvondo üzrə kişilərdən ibarət Azərbaycan yığma komandasının məşqçilərinin rolu da az deyil. İnanırıq ki, Olimpiya çempionumuz fəth etdiyi zirvə ilə kifayətlənməyəcək, yeni-yeni qələbələrə imza atacaq.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 avqust tarixli 306 nömrəli qərarı ilə **təsdiq edilmişdir.**

## Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması və verilməsi

## Q A Y D A S I

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 22.6-cı maddəsinə əsasən hazırlanmışdır.

1.2. Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin verilməsi zamanı bu Qayda ilə tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının "Lisenziyalar və icazələr haqqında", "İnzibati icraat haqqında", "Dövlət rüsumu haqqında" qanunlarına, habelə "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya"nın IX fəslinə ("Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"yə) əsasən tənzimlənir.

### 2. Şəhadətnamələrin formaları və rekvizitləri

2.1. Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən olunur və Şəhadətnamədə aşağıdakılar öz əksini tapır:

2.1.1. Şəhadətnaməni verən inzibati orqanın adı və ünvanı;

2.1.2. Şəhadətnamənin adı;

2.1.3. Şəhadətnamənin qeydiyyat nömrəsi;

2.1.4. Şəhadətnamə verilən şirkətə Beynəlxalq Dəniz Təşkilatı (bundan sonra - BDT) tərəfindən verilən identifikasiya nömrəsi;

2.1.5. Şəhadətnamə verilən şirkətin adı və hüquqi ünvanı;

2.1.6. şirkətin istismar edə biləcəyi gəmilərin tipi;

2.1.7. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq şirkətdə aparılmış son yoxlama tarixi;

2.1.8. Şəhadətnamənin verildiyi yer;

2.1.9. Şəhadətnamənin verildiyi tarix;

2.1.10. Şəhadətnamənin müddəti;

2.1.11. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq, illik yoxlamanın keçirilməsinə dair qeyd;

2.1.12. imza və möhür yeri.

2.2. Gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin forması bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən olunur və Şəhadətnamədə aşağıdakılar öz əksini tapır:

2.2.1. Şəhadətnaməni verən inzibati orqanın adı və ünvanı;

2.2.2. Şəhadətnamənin adı;

2.2.3. Şəhadətnamənin qeydiyyat nömrəsi;

2.2.4. gəminin adı;

2.2.5. gəminin tipi;

2.2.6. gəminin çağırış siqnalı;

2.2.7. gəminin qeydiyyat limanı;

2.2.8. gəminin ümumi tutumu;

2.2.9. gəminin BDT nömrəsi;

2.2.10. gəmini istismar edən şirkətə BDT tərəfindən verilən identifikasiya nömrəsi;

2.2.11. gəmini istismar edən şirkətin adı və hüquqi ünvanı;

2.2.12. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq gəmidə aparılmış son yoxlama tarixi;

2.2.13. Şəhadətnamənin verildiyi yer;

2.2.14. Şəhadətnamənin verildiyi tarix;

2.2.15. Şəhadətnamənin müddəti;

2.2.16. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq, ara və əlavə yoxlamaların keçirilməsinə dair qeyd;

2.2.17. imza və möhür yeri.

2.3. Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin və gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamənin (bundan sonra - Şəhadətnamə) yuxarı hissəsində Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının (bundan sonra - Administrasiya) tam adı və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri əks olunur.

2.4. Şəhadətnamələrin üzərindəki məlumatlar Azərbaycan və ingilis dillərində göstərilir.

### 3. Şəhadətnamələrin alınması üçün müraciət

3.1. Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları Şəhadətnamənin alınması üçün "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada Administrasiyaya ərizə təqdim edirlər.

3.2. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir (bu Qaydanın 3.4-cü bəndində göstərilən qaydada əldə edə bilmədikdə):

3.2.1. hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;

3.2.2. ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

3.2.3. ərizədə qeyd olunan obyektlərdən hər birinin üzərində ərizəçinin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədinin surəti;

3.2.4. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq, ixtisasa, hazırlığa və təcrübəyə malik olan məsul şəxs və ya şəxslərin müvafiq sənədlərinin və vəzifəyə təyin edilməsi barədə müqavilənin surəti;

3.2.5. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq tərtib edilmiş əmniyyətli idarəetmə sistemi;

3.2.6. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tətbiq edildiyi gəmilərin siyahısı və tipləri;

3.2.7. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olaraq keçirilmiş yoxlamanın nəticəsinə dair akt.

3.3. Bu Qaydanın 3.2-ci bəndində göstərilən sənədlər bilavasitə təqdim edildikdə, sənədlərin surətləri onların əsli ilə birgə təqdim edilir və tutuşdurma aparıldıqdan sonra sənədlərin əsli onları təqdim etmiş şəxsə qaytarılır. Ərizəçi Şəhadətnamənin alınması üçün poçt rabitəsi və ya elektron qaydada müraciət etdikdə, bu Qaydanın 3.2.1-ci, 3.2.2-ci, 3.2.3-cü və 3.2.4-cü yarımbəndlərində göstərilən sənədlərin notarial qaydada təsdiq olunmuş surətlərini ərizəyə əlavə edir.

3.4. Administrasiya bu Qaydanın 3.2-ci bəndində göstərilən sənədlər barədə məlumat əldə etmək üçün dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə edir. Bu mümkün olmadığı hallarda, həmin sənədlərin təqdim edilməsi ərizəçidən tələb olunur.

3.5. Şəhadətnamənin verilməsi üçün dövlət rüsumu Administrasiyanın verdiyi məlumat alındığı tarixdən 5 iş günü ərzində ərizəçi tərəfindən ödənilir və ödənişi təsdiq edən sənəd Administrasiyaya təqdim olunur.

3.6. Ərizə Administrasiya tərəfindən "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq qəbul edilir və qeydiyyata alınır.

### 4. Şəhadətnamələrin verilməsi

4.1. Administrasiya ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin bu Qaydanın 3.1-ci və 3.2-ci bəndlərinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və Şəhadətnamənin verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 5 iş günündən gec olmayaraq Administrasiya onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir, habelə formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar eyni zamanda ərizəçiyə bildirilməlidir.

4.2. Ərizəçi bu Qaydanın 4.1-ci bəndində göstərilən çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman Şəhadətnamənin verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət Şəhadətnamənin verilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

4.3. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 4.2-ci bəndində göstərilən müddətdə aradan qaldırmadıqda, Administrasiya ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir, həmçinin bu barədə məlumatı 2 iş günü müddətində ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

4.4. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra Şəhadətnamənin alınması üçün təkrar ərizə ilə Administrasiyaya müraciət edə bilər.

4.5. Azərbaycan Respublikasının qanunları ilə ("İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu istisna olmaqla) daha qısa müddət müəyyən edilməyibsə, Administrasiya təqdim olunmuş ərizəyə və ona əlavə edilmiş sənədlərə baxılmanın nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 7 iş günündən gec olmayaraq Şəhadətnaməni verir və ya verilməsindən imtina haqqında inzibati akt qəbul edir.

4.6. Administrasiya bu Qaydanın 4.5-ci bəndi ilə müəyyən edilmiş müddətdən gec olmayaraq, ərizəçiyə Şəhadətnaməni təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir, Şəhadətnamənin verilməsi üçün dövlət rüsumunun ödəməsi vəzifəsi barədə şifahi və ya məktub vasitəsilə məlumat verir. Şəhadətnamənin verilməsindən imtina haqqında inzibati akt Administrasiyanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.7. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd ərizəçi tərəfindən Administrasiyaya təqdim edildikdən sonra Şəhadətnamə 2 iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd Administrasiyaya təqdim edilmədikdə, Şəhadətnamə Administrasiya tərəfindən ləğv edilir və bu barədə məlumat 2 iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.8. Gəminin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamə dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamə alındıqdan sonra verilir.

4.9. Administrasiya tərəfindən verilən Şəhadətnamələrlə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsində göstərilən məlumatları əks etdirən reyestr aparılır və onların yenilənədiyi gün reyestrdə qeydə alınması təmin edilir.

4.10. Şəhadətnamə Administrasiyanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

### 5. Şəhadətnamələrin verilməsindən imtina

5.1. Ərizədə və ona əlavə edilmiş sənədlərdə qanuna uyğun olmayan məlumatlar olduqda (bu Qaydanın 4.1-ci bəndinin ikinci cümləsində nəzərdə tutulmuş hal istisna edilməklə) Şəhadətnamənin verilməsindən imtina edilir.

5.2. Şəhadətnamənin verilməsindən imtina haqqında inzibati akt imtina halları göstərilməklə əsaslandırılmalıdır. Ərizəçi həmin inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

### 6. Şəhadətnamələrin verilməsi üçün dövlət rüsumu

6.1. Şəhadətnamənin verilməsi üçün dövlət rüsumunun ödənilməsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

7. Şəhadətnamələrin yenidən rəsmiləşdirilməsi

7.1. Şəhadətnamə aşağıdakı hallarda yenidən rəsmiləşdirilir:

7.1.1. Şəhadətnamə sahibi olan hüquqi şəxs yenidən təşkil edildikdə;

7.1.2. Şəhadətnamə sahibi olan hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının, nümayəndəliyinin adı və ya hüquqi ünvanı dəyişdikdə;

7.1.3. Şəhadətnamənin sahibi Şəhadətnamənin müddətinin uzadılması ilə bağlı Administrasiyaya müraciət etdikdə.

7.2. Bu Qaydanın 7.1-ci bəndində göstərilən əsaslar olduqda, Şəhadətnamənin sahibi və ya onun hüquqi varisi həmin əsasların yarandığı gündən 5 iş günündən gec olmayaraq Şəhadətnamənin yenidən rəsmiləşdirilməsi üçün Administrasiyaya ərizə ilə müraciət etməlidir.

7.3. Həmin ərizəyə yenidən rəsmiləşdirilməli olan Şəhadətnamə, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın və vergi uçotuna alınması haqqında Şəhadətnamənin surətləri əlavə olunur.

7.4. Administrasiya bu Qaydanın 7.2-ci və 7.3-cü bəndlərinə uyğun olaraq, ərizə və ona əlavə olunan sənədlər daxil olduqdan 3 iş günü ərzində müvafiq düzəlişləri edərək yenidən rəsmiləşdirilmiş Şəhadətnaməni Şəhadətnamənin sahibinə və ya onun hüquqi varisinə təqdim edir, yaxud sifarişli poçt göndərişi vasitəsilə göndərir.

7.5. Şəhadətnamə sahibi Şəhadətnamənin müddətini uzatmaq istədikdə, Şəhadətnamənin müddətinin bitməsinə ən azı 30 gün qalmış Şəhadətnamənin müddətinin uzadılmaqla yenidən rəsmiləşdirilməsi üçün Administrasiyaya ərizə ilə müraciət etməlidir.

7.6. Şəhadətnamənin yenidən rəsmiləşdirildiyi müddətdə Şəhadətnamənin sahibi və ya onun hüquqi varisi öz fəaliyyətini Administrasiyaya təqdim etdiyi ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında arayış əsasında həyata keçirir.

### 8. Şəhadətnamələrin dublikatının verilməsi

8.1. Şəhadətnamə itirildikdə və ya zədələndikdə, Şəhadətnamə sahibi Şəhadətnamənin dublikatının verilməsi üçün Administrasiyaya ərizə ilə müraciət edir.

8.2. Administrasiya ərizənin daxil olduğu tarixdən 3 iş günü müddətində Şəhadətnamənin dublikatını hazırlayaraq, ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

8.3. Şəhadətnamənin dublikatının verildiyi müddətdə Şəhadətnamə sahibi öz fəaliyyətini Administrasiyaya təqdim etdiyi ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında arayış əsasında həyata keçirir. Həmin arayış Administrasiyanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və möhürlə təsdiq edilir.

8.4. Şəhadətnamənin dublikatı itirilmiş və ya zədələnmiş Şəhadətnamə ilə eyni hüquqi qüvvəyə malikdir.

### 9. Şəhadətnamələrin qüvvəsinin dayandırılması

9.1. Şəhadətnamənin qüvvəsi aşağıdakı hallarda dayandırılır:

9.1.1. Şəhadətnamənin sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

9.1.2. Şəhadətnamənin sahibi Şəhadətnamənin verilməsi şərtlərinin pozulması hallarının aradan qaldırılmasına dair Administrasiyanın göstərişlərini yerinə yetirmədikdə.

9.2. Şəhadətnamənin qüvvəsi Administrasiyanın inzibati aktı ilə dayandırılır. Həmin inzibati aktda dayandırılmaya əsas verən hallar və Şəhadətnamənin qüvvəsinin dayandırıldığı müddət göstərilməlidir. Bu Qaydanın 9.1.2-ci yarımbəndində göstərilən əsas üzrə Şəhadətnamənin qüvvəsinin dayandırılması haqqında inzibati aktda həmçinin dayandırılmaya əsas verən pozuntunun aradan qaldırılması üçün görülməli olan tədbirlər və Şəhadətnamənin qüvvəsinin dayandırıldığı müddətdə həmin halların aradan qaldırılmamasının nəticəsi göstərilməlidir.

9.3. Şəhadətnamənin sahibi Şəhadətnamənin qüvvəsinin dayandırıldığı müddət bitənədək, bu Qaydanın 9.1.2-ci yarımbəndində göstərilən halları aradan qaldırmalı və nəticəsi barədə 3 iş günü müddətində Administrasiyaya yazılı məlumat verməlidir.

9.4. Bu Qaydanın 9.1.1-ci yarımbəndində göstərilən əsas üzrə dayandırılmış Şəhadətnamənin qüvvəsi Şəhadətnamə sahibinin müvafiq ərizəsinə, bu Qaydanın 9.1.2-ci yarımbəndində göstərilən halda dayandırılmış Şəhadətnamənin qüvvəsi isə həmin halların aradan qaldırılması barədə Şəhadətnamə sahibinin təqdim etdiyi yazılı məlumata əsasən Administrasiyanın inzibati aktı ilə bərpa olunur.

9.5. Şəhadətnamənin qüvvəsinin dayandırılması və bərpa olunması haqqında inzibati akt qəbul olunduğu tarixdən 2 iş günü müddətində Şəhadətnamənin sahibinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

9.6. Şəhadətnamənin sahibi Şəhadətnamənin qüvvəsinin dayandırılması haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

### 10. Şəhadətnamələrin qüvvədəolma müddəti

10.1. Şəhadətnamə Administrasiya tərəfindən 5 il müddətinə verilir.

10.2. Şəhadətnamənin dublikatının müddəti əvvəlki Şəhadətnamənin müddəti ilə məhdudlaşır.

10.3. Şəhadətnamənin qüvvəsinin dayandırıldığı müddət Şəhadətnamənin müddətinə daxil edilir.

### 11. Şəhadətnamələrin ləğvi

11.1. Şəhadətnamə aşağıdakı hallarda ləğv edilir:

11.1.1. Şəhadətnamə sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

11.1.2. Şəhadətnamənin müddəti bitdikdə;

11.1.3. Şəhadətnamənin sahibi olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;

11.1.4. məhkəmənin müvafiq qərarı olduqda;

11.1.5. Şəhadətnamənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə;

11.1.6. bu Qaydanın 9.3-cü bəndində göstərilən məsələ ilə bağlı Administrasiyaya yazılı məlumat verilmədikdə;

11.1.7. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.1.8-ci maddəsində göstərilən əsas olduqda;

11.1.8. "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə riayət olunmadıqda.

11.2. Dənizçilik şirkətinin "Əmniyyətli İdarəetmə haqqında Beynəlxalq Məcəllə"nin tələblərinə uyğun olması haqqında Şəhadətnamə ləğv edildikdə, şirkətin sahibliyində olduğu gəmilərə verilmiş müvafiq Şəhadətnamələr də ləğv edilir.

11.3. Şəhadətnamə bu Qaydanın 11.1-ci bəndində göstərilən hallara (bu Qaydanın 11.1.4-cü yarımbəndi istisna olmaqla) istinad edilməklə, Administrasiyanın inzibati aktı ilə ləğv edilir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 iş günü müddətində Şəhadətnamənin sahibinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

11.4. Şəhadətnamənin sahibi Şəhadətnamənin ləğvi haqqında inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

***Qeyd.*** *Bu Qaydada dəyişikliklər Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırıldıqdan sonra edilə bilər.*

---

# TƏLİMDƏ NƏ QƏDƏR ÇƏTİN OLSA DA...

***Bu günlərdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Xəzər Dəniz Neft Donanmasında Fövqəladə Hallar Nazirliyi nümayəndələrinin iştirakı ilə yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqasının təlim-məşqi keçirilib.***





Donanmanın yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqasının, "Orion-18" xüsusi xidmət və "Orion-17" yedək gəmilərinin cəlb olunduğu təlbir "Limanda dayanarkən gəminin yaşamaq qabiliyyəti uğrunda mübarizə", "Gəmidən suya düşən insanın xilas edilməsi", "Dənizdə keçid zamanı və zəhərlənmə ocağında radiasiya və kimyəvi kəşfiyyatın aparılması" və "Gəmidə qismən kimyəvi təmizləmə dezaktivasiyasının aparılması" siqnalları üzrə təşkil edilib.

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Baş Əməliyyat idarəsinin baş zabiti mayor Yalçın Əsgərov, Fövqəladə Hallar Nazirliyi Mülki Müdafiə Qoşunları Mülki Müdafiə idarəsinin Mülki Müdafiənin Kəşfiyyat bölməsinin rəisi mayor İlqar Səfərov və Xəzər Dəniz Neft Donanmasının Mülki Müdafiə və Hərbi Səfərbərlik şöbəsinin rəisi Eyvaz Paşayevin rəhbərliyi altında keçirilən məşqi ARFHN-nin nümayəndələri mayor Qurban Mustafayev, mayor Elşən Yolçuyev, kapitan Cəsarət Kərimov, "AXDG" QSC-nin MR və HSŞ-nin rəisi Rəşad Hüseynov, QSC-nin MMQ rəisi Natiq Orucov, XDND-nin MMQ rəisi Elvin Məlikli yaxından müşahidə etmişlər.

Deyirlər "təlimdə nə qədər çətin olsa, döyüşdə o qədər asan olur." "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti işçilərinin mülki müdafiə hazırlığını və biliyini yüksəltmək, ekstremal şəraitdə fiziki və psixoloji dözümlülüyünü artırmaq, fövqəladə halların nəticələrini aradan qaldırmaq üçün zəruri vərdişləri və praktiki bacarıqları təkmilləşdirmək məqsədilə təşkil olunan belə tədbirlər səmərəsiz qalmır. Bu təlim-məşq həm də "AXDG" QSC-nin yüksək hazırlıqlı mülki müdafiə dəniz kəşfiyyatı manqasının və gəmilərin şəxsi heyətinin səhvsiz qərar qəbul etmək, zəruri cihazlardan düzgün istifadə etmək bacarığını, onlara təhkim olunmuş ərazilərdə radioaktiv şüalanmanın, kimyəvi zəhərlənmənin aşkar edilməsinə, dənizdə və sahilyanı ərazilərdə mühəndis kəşfiyyatının təşkilinə, eləcə də baş verə biləcək fövqəladə halların qarşısının alınmasına və nəticələrinin aradan qaldırılmasına nə qədər hazır olduqlarını nümayiş etdirib.

*Tahir DADAŞOV*

# HƏRBİ DƏNİZ QÜVVƏLƏRİNDƏ KEÇİRİLƏN TƏLİMLƏRİN DÖYÜŞ ATIŞLI MƏRHƏLƏSİ YÜKSƏK SƏVİYYƏDƏ İCRA EDİLİB

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə və təsdiq edilmiş döyüş hazırlığı planına əsasən Hərbi Dəniz Qüvvələrində keçirilən təlimlərin döyüş atışlı növbəti mərhələsi icra edilib.***

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, təlimlərə 3000 nəfərədək şəxsi heyət, 30-dan artıq döyüş gəmisi, katerlər, 20-dək döyüş təyyarəsi, helikopterlər və 20-dən çox raket-artilleriya qurğusu cəlb olunub.

Avqustun 24-də təlimlərin əsas mərhələsində, Müdafiə Nazirliyinin rəhbər heyəti komanda idarəetmə gəmisində dəniz poliqonunda təlim tapşırıqlarını yerinə yetirən qüvvə və vasitələrin manevrlərini və döyüş atışlarını izləyib.

Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri, eləcə də xüsusi təyinatlıların iştirakı ilə keçirilən təlimlərin ilkin mərhələsində HDQ-nin tam döyüşə hazır vəziyyətə gətirilməsi, gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, komplektləşdirmə və döyüş uzlaşması tədbirləri müvəffəqiyyətlə yerinə yetirilib.

Növbəti mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus hissəsində enerji infrastrukturunun mühafizəsi üzrə əməliyyatların planlaşdırılması və təlimlərdə iştirak edən qüvvələrə döyüş tapşırıqlarının çatdırılması yekunlaşdırılıb.

Təlimlərin yekun mərhələsində terror-diversiya qrupları tərəfindən ələ keçirilmiş ticarət gəmisinin və neft ixrac özülünün azad edilməsi, həmçinin Xəzər dənizinin əməliyyat zonasına qeyri-qanuni daxil olan şərti düşmən gəmilərinin məhv olunması məqsədilə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri və helikopterləri, sahilboyu yerləşdirilən Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri, o cümlədən xüsusi təyinatlılar qarşılıqlı əlaqədə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər.








Döyüş atışlarının icrası ilə həyata keçirilən təlimlərin əsas mərhələsində şərti düşmənin hədəfləri məhv edilərək qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimlərə cəlb olunan şəxsi heyətin peşəkarlığını, praktiki və mənəvi-psixoloji hazırlığının səviyyəsini, həmçinin bölmələrin döyüş qabiliyyətini yüksək qiymətləndirib.



# AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9 MİLYON 755 MİNİ ÖTÜB

***Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 49,9 min nəfər və ya 0,5 faiz artaraq bu il iyulun 1-nə 9755,5 min nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildiriblər ki, əhalinin sıxlığı bir kvadrat kilometrə 113 nəfər olub. Əhalinin ümumi sayının 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1007 nəfər qadın düşür.

Cari ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 77,3 min, yaxud hər gün orta hesabla 424 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 16,1 təşkil edib. Doğulan körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarından ibarət olub. Körpələrin 1412-si əkiz, 36-sı isə üçəm doğulub.

# Sentyabrın 5-dək dərsliklərin şagirdlərə paylanılması planlaşdırılır



***2016-2017-ci tədris ili üçün çap edilən dərsliklərin yerlərə çatdırılması prosesi artıq yekunlaşıb. Dövlət ümumtəhsil müəssisələri tərəfindən sentyabrın 5-dək dərsliklərin şagirdlərə paylanılması nəzərdə tutulur.***

Təhsil Nazirliyindən bildiriblər ki, şagirdlərin bir məktəbdən digərinə yerdəyişməsi, şagird sayının artması və birinci sinfə gedəcək şagirdlərin sayının 100 faiz dəqiqliklə proqnozlaşdırılmasının mümkünsüzlüyü bəzi məktəblərdə dərsliklərlə təminatda müəyyən çətinliklər yarada bilər. Bu səbəbdən şagirdlərin vaxtında dərsliklərlə təminatı üçün şagirdlərdən və onların valideynlərindən sentyabrın 5-dək təhsil aldıqları məktəbə müraciət edərək dərsliklərin əldə edilməsi xahiş olunur. Hansısa səbəbdən şagirdlərin dərsliklərlə təminatında çətinliklər yaranarsa, bu barədə məktəb rəhbərliyinə məlumat verilməlidir. Yaranmış problem məktəb rəhbərliyi və aidiyyəti qurumlar tərəfindən sentyabrın 15-dək həllini tapacaq.

Dərsliklərin əldə edilməsi üçün məktəblərə vaxtında edilən müraciətlər dərslik təminatında yarana biləcək problemləri operativ şəkildə aradan qaldırmağa imkan verəcək.

Şagirdlərin və valideynlərin nəzərinə bir daha çatdırılır ki, hər bir dərsliyin istifadə müddəti dörd ildir. Onlar dərsliklərin qorunmasına, səliqəli şəkildə istifadəsinə və dərs ilinin sonunda yeni istifadəçiyə ötürülməsinə qayğı ilə yanaşmalıdırlar.

# Bu körpənin nə günahı?



***BMT-nin Uşaq Fondunun (UNICEF) icraçı direktoru Entoni Lake Hələb şəhərində dağıntılar altından xilas edilən Ümran Daknes kimi 100 mindən çox uşağın Suriyada vətəndaş müharibəsinin qurbanına çevrildiyini bildirib.***

Anadolu informasiya agentliyi xəbər verir ki, Lake 5 yaşında olan Ümranın fotoşəkillərinin bütün dünyanın diqqətini çəkdiyini və Hələbdə onun kimi çox sayda uşağın zülmə məruz qaldığını qeyd edib.

Hələb şəhərinin Əl Katerji məhəlləsinə endirilən hava zərbələri nəticəsində dağılan binanın qalıqları altından çıxarılan Ümranın tibb maşınında çəkilən görüntüsü Suriyadakı müharibənin daha bir simvoluna çevrilib.

BMT Baş katibinin mətbuat xidmətinin nümayəndəsi Fəraq Haq Rusiyanın Hələbdə 48 saatlıq atəşkəs elan etməsindən sonra bölgəyə yardım aparmaq üçün hazır olduqlarını deyib, lakin atəşkəsin nə vaxt qüvvəyə minəcəyini bildirməyib.

## Bortda ad

# ECAZKAR SƏSİ BİR VAXTLAR DƏNİZÇİLƏRİN MƏDƏNİYYƏT EVİNDƏN DALĞA-DALĞA ƏTRAFA YAYILIRDI

***Avqustun 17-si Azərbaycanın və SSRİ-nin Xalq Artisti Müslüm Maqomayevin doğum günü idi.***

Azərbaycanın görkəmli opera və estrada müğənnisi Müslüm Maqomayev 1942-ci ildə Bakıda anadan olub. 14 yaşında doğma şəhəri Bakıda Dənizçilərin mədəniyyət evində çıxış edən Müslüm Maqomayev ilk uğurunu 1962-ci ildə qazanıb. Maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya festivalına yollanan Müslüm oradan medalla qayıdıb. Bu münasibətlə populyar "Oqonyok" jurnalı onun portretini və "Bakılı gənc dünyanı fəth edir" sərlövhəli məqaləni dərc edib.



Müslüm Maqomayev XX əsrin 60-cı illərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, Milanın dünya şöhrətli "La Skala" teatrında təcrübə keçib.

Ötən əsrin 60-70-ci illərində Müslüm Maqomayevin məşhurluğunun həddi-hüdudu yox idi. Konsert salonlarındakı yerlər azlıq etdiyindən o, stadionlarda minlərlə dinləyici qarşısında çıxış edir, daim qastrol səfərlərində olurdu. Mahnıları yazılan vallar çox böyük tirajla buraxılırdı. Məhz buna görə də onu sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı, rəmzi adlandırırlar. Keçmiş SSRİ-də klassik opera ariyalarını estradaya məhz Müslüm Maqomayev gətirib. Təsadüfi deyil ki, o, 31 yaşında SSRİ Xalq Artisti fəxri adına layiq görülüb.

Dünya şöhrətli müğənninin repertuarında 600-dək əsər var. O həm də gözəl mahnılar müəllifidir. Müslüm Maqomayevin ecazkar səslə ifa etdiyi mahnıların sırasında dahi Üzeyir Hacıbəylinin Nizami Gəncəvinin qəzəllərinə bəstələdiyi "Sənsiz" və "Sevgili canan" romanslarının xüsusi yeri var. Ona görə ki, burada üç dahi sənətkarımızın - şair, bəstəkar və müğənninin ruhu görüşür. Onu da etiraf etmək yerinə düşər ki, bu romanslar Müslümə qədər korifey sənətkarların ifasında səslənib. Amma o, bu romanslara elə çalarlar, elə bənzərsiz intonasiyalar gətirdi, elə sevgi ilə yanaşdı ki, onları fərqləndirməyi, özününküləşdirməyi bacardı, fəlsəfi yüksəkliyə qaldırdı.

Onun xalq şairi Nəbi Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan, vətənimizin himni kimi əzəmətli səslənən "Azərbaycan" mahnısı da ölkəmizə ithaf olunmuş ən gözəl əsərlərdəndir. Müğənni həm də "Oxuyur Müslüm Maqomayev", "Nizami", "Moskva notlarda" filmlərində çəkilib.

Müslüm Maqomayev çoxşaxəli sənətkar idi. Belə geniş diapazonu, ürəkləri fəth edən həm lirik, həm də güclü səsə çox az rast gəlinir. Müslüm Maqomayev ifa etdiyi hər mahnıda, ariyada yeni bir dünya, öz dünyasını yaradırdı.

Azərbaycan xalqının zəngin musiqi ənənələrinin qorunub saxlanılmasında və müasir dövrdə layiqincə inkişaf etdirilməsində Müslüm Maqomayevin yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Dövlət estrada-simfonik orkestri mühüm rol oynayıb. Orkestrin rəngarəng proqramlarında M.Maqomayev əsl sənətkara xas əzmkarlıqla hər bir ifasını bir aktyorun teatrı səviyyəsinə qaldırmağa nail olub.

M.Maqomayevin milli musiqi mədəniyyətimizin inkişafı sahəsində mühüm nailiyyətləri yüksək qiymətləndirilib və o, müstəqil Azərbaycanın ali mükafatları – "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilib. Ecazkar səsi ilə dünyanı fəth edən Müslüm Maqomayevin 70 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə silsilə tədbirlərlə qeyd olunub.

Onun yoxluğunun acısını daha çox hiss edən sənətkarın ömür-gün yoldaşı, SSRİ Xalq Artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya deyir: "Müslüm Maqomayevi yığcam, qısa fikirlərlə təsvir etmək çətindir. O, böyük insan idi. Həyatının müxtəlif illəri onunla birgə keçmişdir. Fikirlərini mənimlə bölüşərdi. O anlar mənim üçün unudulmaz olduğu qədər də əlçatmazdır. Müslüm Maqomayev ad gününü böyük salonlarda, hay-küylü keçirməyi xoşlamazdı, ancaq dostlarının əhatəsində qeyd edərdi. Hədiyyələri bir o qədər də sevməzdi. Ad günündə onun haqqında gözəl sözlər deyərdilər. Mən bunların şahidi olmuşam. Müslüm Maqomayev bütün dövrlərin musiqicisidir və ikinci belə bir sənətkar dünyaya gəlməyəcək".

# İŞÇİ QRUPUN İKİNCİ İCLASI KEÇİRİLİB

***Azərbaycan Respublikası Prezidentinin Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla Azad Ticarət Zonası (ATZ) tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı Sərəncamının icrasının təmin olunması məqsədilə yaradılmış İşçi Qrupunun ikinci iclası "ADA" Universitetində keçirilib.***



Bakı Limanının baş direktoru Taleh Ziyadov bildirib ki, "Azad Ticarət Zonasının yaradılması bilavasitə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın qeyri-neft sektorunun inkişafı, ölkəmizin Avrasiya regionunda "hub", yəni nəqliyyat və logistika mərkəzinə çevirmək siyasətinin mühüm hissəsidir."

İclasda İqtisadiyyat, Maliyyə, Vergilər, Ekologiya və Təbii Sərvətlər, Ədliyyə nazirliklərinin, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti, Dövlət Miqrasiya Xidməti və Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndələri ilə yanaşı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, Dövlət Neft Şirkətinin (SOCAR) nümayəndələri iştirak ediblər.

# HƏR ŞEY ÜRƏYİMİZCƏDİR

***Biz - Azərbaycan Dövlət Dəniz Akademiyasının bir qrup tələbəsi, artıq iki aydan çoxdur ki, Xəzər Dəniz Neft Donanmasının "Oktay Vəliyev" yedək-təchizat gəmisində istehsalat təcrübəsi keçirik. Təcrübəyə başlamamışdan öncə, gəmidə təhlükəsizlik qaydaları ilə bağlı təlimatlandırıldıq. 6 təcrübəçidən ikisi mexanik, dördü isə elektromexanik ixtisasının sirlərinə yiyələnir. Gündə 2 saat dərs keçir, 4 saat isə praktiki işlərlə məşğul oluruq. Qısa müddətdə dartma qüvvəsi 80 ton olan yedək-təchizat gəmisinin maşın və mexanizmləri haqqında kifayət qədər bilgi ala bilmişik. Əbəs yerə deməyiblər ki, yüz eşitməkdənsə, bir dəfə görmək yaxşıdır.***










Gəmidə bütün heyət bizə qayğı ilə yanaşır. Böyük mexanik Sabir Atayev təcrübəli dənizçidir və maraqlandığımız hər şeyi bizə səbrlə başa salır. Digər dənizçilər də köməyini bizdən əsirgəmirlər. Təcrübə rəhbərimiz Hacı Babayev isə vaxtaşırı bizə baş çəkir, təcrübəmizin gedişi və şəraitimizlə maraqlanır.

Gəmidə hər şey ürəyimizcədir. Başa düşürük ki, yaxşı mütəxəssis olmaq üçün bu cür təlim-təcrübələrin əhəmiyyəti böyükdür. Biz də gələcəyin dənizçiləri üçün yaradılan bu şəraitdən maksimum faydalanmağa, təcrübədə olduğumuz vaxtın hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq.

***Mənsur CÜMŞÜDOV,***
***Azərbaycan Dövlət Dəniz Akademiyasının 193 R qrup tələbəsi***






***Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Yunanıstan ərazisindən keçən hissəsinin inşası məqsədilə boruların daha bir hissəsi bu ölkəyə gətirilib.***

# BORULAR ALEKSANDRUPOLİS LİMANINA ÇATDIRILIB

Bu barədə TAP-ın "twitter" səhifəsində məlumat verilir. Bildirilir ki, ümumilikdə 700-dən çox boru Yunanıstanın Aleksandrupolis limanına çatdırılıb.

TAP-ın inşasında ümumilikdə 53 mindən çox borudan istifadə olunacaq. Boru kəmərinin Yunanıstan hissəsində 32 min, Albaniya hissəsində 12 min, Adriatik dənizi hissəsində 8,75 min, İtaliya hissəsində isə 660 borudan istifadə ediləcək. Boruların ümumi çəkisi 526 min tondur. Bunun da Albaniya hissəsində 126 min tonu, Yunanıstanda 323 min tonu, dəniz hissəsində 72 min tonu, İtaliyada isə 5 min tonu istifadə ediləcək.

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin (Southern Gas Corridor - SGC) tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 871 kilometr (Yunanıstan – 547 kilometr, Albaniya – 211 kilometr, Adriatik dənizi – 105 kilometr, İtaliya – 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 36 düym). Bu il mayın 17-də Yunanıstanın Saloniki şəhərində TAP-ın təməlqoyma mərasimi keçirilib. Mayın sonlarına kimi layihə üzrə iş həcminin 19,5 faizi yerinə yetirilib və ümumilikdə 877 milyon avro həcmində sərmayə qoyulub. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir. TAP üzrə tələb olunan kapital xərcləri 5 milyard dollardır. Boru kəmərinin 2020-ci ildə istismara verilməsi nəzərdə tutulur.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# ERMƏNİSTANDAN AXIDILAN ÇİRKAB SULARI KÜR ÇAYINI YENƏ DƏ ÇİRKLƏNDİRİR

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamenti Kür və Araz transsərhəd çaylarının, həmçinin onların qollarının çirklənmə vəziyyətini öyrənmək məqsədilə avqust ayının ikinci ongünlüyü üçün növbəti monitorinq keçirib.***



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, Kür çayında su sərfi avqust ayının birinci ongünlüyünə nisbətən saniyədə 61 kubmetr artıb. Monitorinqin nəticələrinə əsasən, Gürcüstan və Ermənistan ərazilərindən təmizlənmədən birbaşa su obyektlərinə axıdılan məişət tullantıları və sənaye müəssisələrinin çirkab sularının təsiri nəticəsində Kür çayı və onun qollarında biogen maddələrin miqdarı normadan dəfələrlə artıq olub. Suyun tərkibindəki spesifik çirkləndiricilərdən fenollar Şıxlı-2 məntəqəsində 3,5, Ağstafaçayda 3,6, Ağstafaçay su anbarında isə 3,4 dəfə yol verilən qatılıq həddini keçib.

Fenolların Araz çayı üzrə Horadizdə 2,7, Birinci Şahsevəndə 2,5, Bəhramtəpədə isə 2,2 dəfə yol verilən qatılıq həddini keçdiyi müəyyən edilib. Mis birləşmələri isə Kür və Araz çayları üzrə bütün məntəqələrdə norma daxilində tərəddüd edib.

Suyun oksigen rejiminin bütün məntəqələrdə sanitar norma daxilində dəyişdiyi qeydə alınıb.

# "XƏZƏR GÜNÜ"NƏ XÜSUSİ ÖNƏM VERİLİR

***Avqustun 12-si Xəzər dənizinin ətraf mühitinin mühafizəsi günü idi.***



"Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında çərçivə konvensiyası" BMT-nin Ətraf Mühit proqramının və digər beynəlxalq təşkilatların dəstəyi ilə Xəzəryanı dövlətlərin mütəxəssisləri tərəfindən hazırlanıb. Konvensiya mətninin müzakirələri 1995-ci ildən 2003-cü ilədək keçirilən görüşlər zamanı davam edib və 2003-cü il noyabrın 4-də Xəzəryanı ölkələr tərəfindən imzalanıb. Təsdiq olunduğu şəhərin adı ilə "Tehran konvensiyası" kimi tanınan bu saziş Xəzər dənizinin ətraf mühitinin bütün növ mənbələrdən çirklənməsinin qarşısının alınmasına, habelə Xəzər dənizinin ətraf mühitinin mühafizəsi, saxlanması və bərpasına qulluq edir. Konvensiyada Xəzər dənizinin bioloji sərvətlərinin davamlı və səmərəli istifadəsinə, ətraf mühitə təsirin qiymətləndirilməsinə, ekoloji monitorinqə və elmi tədqiqatlara aid müddəalar da öz əksini tapıb. "Tehran konvensiyası" beş Xəzəryanı dövlətin hökumətləri tərəfindən ratifikasiya olunduqdan sonra 2006-cı il avqustun 12-də qüvvəyə minib və sonradan bu tarix "Xəzər günü" kimi qeyd edilməyə başlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu günün qeyd edilməsində əsas məqsəd Xəzər dənizinin ətraf mühitinin çirklənmədən qorunması, dənizin bioloji ehtiyatlarının mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsi, həmçinin bu istiqamətdə əhalinin maarifləndirilməsindən ibarətdir.

Azərbaycanda da "Xəzər günü"nə xüsusi önəm verilir. Hər il Xəzərətrafı rayonların rəsmi dövlət qurumlarının, ictimai təşkilatların və ictimaiyyətin nümayəndələrinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeli qurumlarının iştirakı ilə maarifləndirici tədbirlər, o cümlədən təmizlik və abadlıq işləri həyata keçirilir.

# Yeddi ayda 123, 6 milyon ton yük və 1061,4 milyon sərnişin daşınıb

***Bu ilin yanvar-iyul aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 123,6 milyon ton yük və 1061,4 milyon sərnişin daşınıb.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin daşınması 1,9 faiz artıb.

Yüklərin 62,4 faizi avtomobil, 28,4 faizi boru kəməri, 6,7 faizi dəmir yolu, 2,4 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınıb. Sərnişinlərin 88,0 faizi avtomobil, 11,8 faizi metro, qalanları isə hava və dəniz nəqliyyatı vasitələri ilə daşınıb.

# Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 24 milyon tonadək yük daşınıb

***Cari ilin yanvar-iyun ayları ərzində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 23 milyon 884,0 min ton, yük dövriyyəsi isə 4 milyard 592,0 milyon ton-kilometr olub.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 15 milyon 178,8 min tonu və ya 63,6 faizi avtomobil nəqliyyatı, 6 milyon 472,6 min tonu və ya 27,1 faizi dəmir yolu nəqliyyatı, 2 milyon 232,6 min tonu və ya 9,3 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Qeyd olunan dövrdə avtomobil nəqliyyatı ilə daşınmış yüklərin həcmi 2,7 faiz artıb. Dəhliz vasitəsilə daşınmış yüklərin 14,9 faizini və ya 3 milyon 567,6 min tonunu tranzit yüklər təşkil edib.

Bu ilin yanvar-iyun aylarında dəhliz vasitəsilə 164,6 milyon sərnişin daşınaraq, sərnişin dövriyyəsi 3 milyard 313,3 milyon sərnişin-kilometr olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmış sərnişinlərin sayı 2,2 faiz, sərnişin dövriyyəsi isə 1,2 faiz artıb.

# Təbii su hövzələrinə 329,1 milyon ədəd körpə balıq buraxılıb

***2016-cı ilin birinci yarısında vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinə 1,3 milyon manat və ya 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,7 faiz çox vəsait sərf olunub.***



Dövlət Statistika Komitəsindən bildirilib ki, bu vəsaitin 91,3 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 8,7 faizi isə balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənib.

Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 329,1 milyon ədəd balıq körpələrinin 315,5 milyon ədədi çəkikimilər, 8,0 milyon ədədi nərəkimilər, 5,5 milyon ədədi bitki ilə qidalanan balıqlar, 0,1 milyon ədədi isə qızıl balıqlar olub.

# Kərkük-Ceyhan boru kəməri ilə yenidən neft nəqlinə başlanılıb

***İraq hökuməti ilə İraq kürd muxtar regionu arasında yaranan anlaşılmazlıq ilə əlaqədar xam neftin nəqli dayandırılan Kərkük-Ceyhan boru kəmərindən neft daşınmasına yenidən başlanılıb.***

Anadolu agentliyi xəbər verir ki, İraqın Neft Nazirliyinin tapşırığına uyğun olaraq avqustun 18-dən etibarən Kərkük-Ceyhan boru kəmərindən xam neftin nəqlinə yenidən başlanılıb. Artıq boru kəməri ilə 100 min barrelədək neft nəql edilib. Yaxın vaxtlarda bu həcmin gündəlik 500 min barrelə çatdırılması nəzərdə tutulur.

Qeyd edək ki, İraqın Baş naziri Heydər əl-Abadi mart ayında Kərkük neftinin Ceyhan limanına daşınmasının dayandırılması ilə bağlı göstəriş verimişdi.

# O illərdə “Dəniz” nədən yazırdı

## (Nöqtəsinə, vergülünə dəymədən)




### A. Jdanov adına tankerin qəhrəman ekipajı aeroplanı xilas etmişdir

1938-nçi il yanvarın 1-də Bakıdan neft produqtu ilə Maxac-Qalaya gedən zaman A. Jdanov adına tankerin ekipajı Qaspi dənizində avariyaya uqramış aeroplana qəhrəmançasına yardım göstərərək həm aeroplanı, həm də iki nəfərdən ibarət ekipaj uzvlərini təhlukədən xilas etmişdir.

Qaspi dənizində Jiloy adasından 36 mil kecdikdə şimal enlik dairəsinin 40 dərəçə 59 dəqiqəliyində və şərq uzunluq dairəsinin 50 dəqiqə 0,6 dəqiqəliyində təxminən 300 metr hundurlukdə fırlanaraq dənizə duşməkdə olan aeroplanı Jdanov adına tankerin ekipajı görərək öz həqiqi qursundan cıxmış, aeroplana tərəf surətlə getmişdir. Gunduz saat 8:50 dəqiqədə tankerin ekipajı təhlukə yerinə catmışdır.

Tankerin qapitanı Panin və onun birinçi köməkcisi Pantaq yoldaşların rəhbərliyi ilə tankerin 2 nömrəli şluyubqası suya buraxılır. Şiddətli soyuq olmasına baxmayaraq qomsomolcu motros Qovalyov və partiya uzvluyunə qandidat çilingər Q. Niforovözlərini suya ataraq aeroplanın altından ip kecirməklə onu əl ilə tankerin yanına cəkmişlər. Tankerdə yuk qaldıran qran olmadıqı ucun xeyli cətinlikdən sonra aeroplan hissələrə ayırılıb tankerin palubasına yerləşdirilmiş, sonra tanker Maxac-Qalaya öz yoluna davam etmişdir.

Yanvarın 1-də ekipaj aeroplanı və onun ekipajını Bakıya gətirib Bakı bazasına təhvil vermişdir. Aeroplanın ekipajı tamamilə saq-salamatdır, aeroplanın hec bir yeri belə zədələnməmişdir.

***X. O. Quliyev,***
***“Qaspi bolşeviki”qəzeti, № 3 (1244),***
***6 yanvar 1939-çu il***

### Prostoy törədən səbəbləri tezliklə aradan qaldırmalı

“Aziya” gəmisi 1938-çi ilin iyununda Paris Qommunası adına zavodda əsaslı təmirə dayanmışdı. Bu gəmi yaxşı keyfiyyətli təmir edildikdən sonra noyabrın 9-da neft produqtu daşınması işinə başlamışdır.

Gəmi noyabr ayında Qrasnovodsqiyə 8 reys edərək, bu reyslərdə Bakıdan Qrasnavodsqiyə və geriyə “Promerni” gəmisini yedəyə göturduyu kimi, Perovsqaya adına gəmini Qrasnovodsqiyə, Berezan adına gəmini isə Bakıdan Qrasnovodsqiyə yedəyə göturmuşdur.

Gəmi deqabrda Qrasnovodsqiyə etdiyi 9 reysdə “UFRA” barqazını Bakıdan Qrasnavodsqiyə və Berezan gəmisini isə Qrasnavodsqdan Bakıya yedəyə göturmuşdur.

Bundan başqa “Aziya” gəmisi “Qaliley” və başqa gəmiləri 7 reys yedəyə göturmuşdur.

“Aziya” gəmisi başqa gəmiləri yedəyə göturərkən hər reysdə 10 saat geç gedir.

Qeyd etmək lazımdır ki, “Aziya” gəmisi portlarda cox yubandırılaraq, prostoy edir. Gəmi deqabrın 29-30 və 31-də yuk boşaldılması əmrini gözləmək uzundən 3 gun prostoy etmişdir.

Gəmi işçiləri bu surundurmənin səbəblərini Qrasnavodsq port təşkilatlarından xəbər alarkən onlar “dəmir yolu işi yubandırır” deyə çavab verirlər.

Ekipajın baçarıqlılıqı və iyidliyi nətiçəsində yanvarın 4-də geçə saat 2-də yedəkdən aşılmış Promerni adına neft produqtu daşıyan gəmi saat yarım muddətində şiddətli fırtınadan xilas edilmişdir.

Promerni adına gəminin yedəkdən acılması haqqında radioqramma alan Bakı dispetcer idarəsi kömək göndərilməsini lazım bilir. “Aziya” gəmisi kömək gəlməsini məsləhət bilməyərək özu bu vəziyyətin qarşısını alır.

Gəmi yanvarın 6-da saat birdə yenə Qaliley adına gəmini yedəyə göturərək, reys etmişdir.

“Aziya” gəmisi 62 nömrəli reysi 106 prosent yerinə yetirdiyi halda, dispetcer idarəsi 100 prosent hesabilə əmək haqqı yazmışdır.

Bu barədə qapitanın 2-çi muavini Sanzaq yoldaş dispetcer idarəsinə muraçiət edərək, onların səhv etdiklərini subut etmişdir.

“Aziya” gəmi qomandası planların ödənilməsi uqrunda çiddi mubarizə edir.

***Ayaz,***
***“Qaspi bolşeviki” qəzeti, № 6 (1247),***
***12 yanvar 1939-çu il***

### “Sverdlov” gəmisində əmək intizamı zəifdir

Sverdlov adına su daşıyan gəmidə əmək intizamı və qultur tərbiyəvi işlər olduqça zəifdir. Gəminin administrasiyası gəmi ekipajı arasında lazımi qədər möhkəm nizam-intizam yaratmaması nətiçəsində gəmidə əmək intizamının pozulması, sərxoşluqun artması halları meydana cıxmışdır.

Gəminin qapitanı Petrenqo Pavel Zaxarovic, asaqı qomanda uzvləri arasında möhkəm daxili nizam-qayda yaratmaq əvəzinə, butun reyslərdə Qrasnovodsq portunda başqa ekipaj uzvləri ilə birlikdə sərxoşluq edir.

Qasptanker siyasi şöbəsinin qomsomol uzrə instruqtoru Savartsov yoldaş, gəmiyə gələrkən qapitan Petrenqonun sərxoşluqla məşqul olduqunu görmuşsə də, bugunə kimi Petrenqo haqqında hec kim tərəfindən ölcu göturulməmişdir.

Gəmi qapitanı Petrenqonun səhlənkarlıqı uzundən gəmi saya oturaraq 1938-çi il deqabrın 17-də 15 saat, deqabrın 30-da 8 saat, 1939-çu il yanvarın 8-də 32 saat prostoy etmişdir.

Bundan başqa Qrasnovodsq portundakı Asxabad dəmir yolunun su boşaltmaq yeri olmamasından, qapitan Petrenqo suyu boşaltmaq ucun gəmini başqa yerə aparmadıqından və başqa səbəblər uzundən gəmi 1938-çi ildə 600 saata qədər prostoy etmişdir. Bu prostoyların nətiçəsində də gəmi öz planını ödəməmiş və ekipaj uzvləri az əmək haqqı almışlar.

Butun bu yaramazlıqları aradan qaldırmaq ucun əlaqədar təşkilatlar lazımi tədbirlər görməlidirlər.

***“Qaspi bolşeviki” qəzeti, № 13 (1254),***
***28 yanvar 1939-çu il***

### Gəminin təmiri cox yubandırılır

“Soyuz Vodniq” gəmisi 1936-çı il yanvar ayının 14-dən Paris Qommunası adına zavodda əsaslı təmirə dayanmışdır. Plan uzrə 1936-çı ilin axırlarında təmir işi qurtarmalı ikən, uc ildir yubandırılır.

Zavod administrasiyası gəminin təmir vaqtını 1938-çi ilin oqtyabr ayına qədər uzatmışsa da, bugunə kimi ançaq 47 prosent təmir işi aparılmışdır.

Gəmidə aparılan təmir işi, 19 avqust əsasında başdan sovdu və braq hesab edilmişdir. Uzun zaman gəmi bir yerdə dayandıqı ucun sualtı hissələri curuməyə başlamışdır ki, bu da gəminin bir necə sualtı listlərinin yenidən təmir edilməsinə səbəb olur.

Zavod administrasiyası, bu qədər yubandırmadan kifayətlənməyərək, təmirin qurtarması vaqtını 1939-çu ilin iyul ayına qədər uzatmışdır. Bu gəminin təmir edilməsinə buraxılmış 89 min manat pulun 30 min manatını alıb Alyoşa Çaparidze adına gəminin təmirinə sərf etmişlər. Bundan başqa, gəmidə işləyən fəhlələr işi yarımcıq qoyub gedərək, Alyoşa Çaparidze adına gəminin təmirinə başlamışlar.

Qeyd etmək lazımdır ki, əyər gəmi vaqtında təmirdən qurtarsa idi, öz reyslərində ölkəyə 10 min tonlarla neft produqtu daşıyardı.

Qasptanker idarəsi bu çur biabırcı yubanmaya bir dəfəlik son qoymalıdır.

***“Soyuz Vodniq” gəmisi qapitanının***
***II köməkcisi Məmmədzadə Nazim,***
***“Qaspi bolşeviki” qəzeti, № 20 (1261),***
***12 fevral 1939-çu il***

### Neft produqsiyası daşınmasındakı geriliyi aradan qaldırmalı

Qaspi neft daşıma flotu 1939-çu il naviqasiyası acılışının birinçi gunlərindən neft produqsiyası daşınmasını biabırcı kəsirlə ödəyir.

Daşımadakı bu geriləmənin əsas səbəblərindən biri Paris Qommunası adına və Zaqfederasiya adına gəmi təmir edən zavodların naviqasiyada iştirak edəçək gəmilərin təmir işini yolverilməz dərəçədə ləngitmələridir.

Zaqfederasiya adına zavodda “Molotov” teploxodu vaqtında və yaxşı keyfiyyətlə təmir edilib istismara buraxılmadıqı ucun, teploxod 5 reys planı itirmişdi ki, bu da, 45000 ton neft produqsiyasının az daşınmasına səbəb olmuşdur.

Paris Qommunası adına zavodda təmir edilən “Yupiter”, “Qomsomol”, “Qalinin”, “Marat”, “Kirov”, “Berezan”, “Na vaxte”, “Ameriqa”, “Lafarq” gəmilərində və “Emba” şalandasında təmir işləri möhkəm qrafiq ilə aparılmamışdır. Bu gəmilər vaqtında istismara buraxılmamış və axır vaqtlara kimi naviqasiyada iştirak etməmişlər. Bunun nətiçəsində 32380 ton neft produqsiyası daşınmamışdır.

Bu faqtlardan görunur ki, istər Zaqfederasiya adına zavod (direqtor Muratov yoldaşdır) və istərsə Paris Qommunası adına zavod (direqtor Trunin yoldaşdır) 1939-çu il bolşevik naviqsiyasına pis hazırlaşmışlar.

Qeyd etmək lazımdır ki, Neftiflotun ayrı-ayrı dispetcerləri neft produqsiyası daşıyan gəmilərin qrafiqini bəzi hallarda pozurlar.

Dispetcer Tsemiqov “Udarniq” şalandasını və “Qomsomol” gəmisini vaqtında buqsir gəmiləri ilə təmin etməmiş, qrafiqi pozaraq prostoya yol vermişdir.

Qaspi gəmiciliyinin başcıları, ölkəyə neft produqsiyası daşımaqda əmələ gələn bu gerilənin tezliklə aradan qaldırılmasına calışmalıdırlar.

***Heydərli,***
***“Qaspi bolşeviki” qəzeti, № 61 (1302),***
***8 may 1939-çu il***

### Plan nə ucun ödənilməmişdir

“Qomintern” tankerinə verilən 1939-çu ilin 1-çi qvartal planı 83 prosentdən artıq ödənilməmişdir.

Tanker yanvarda Zaqfederasiya adına gəmi təmir edən zavodda motor təmizliyinə dayanan zaman maşında bir necə detallar duzgun quraşdırılmamışdır.

Mexaniki sexin nacalniqi Nikstin yoldaş tərəfindən bu defeqtlər yoxlanılmadıqı ucun tanker istismara buraxılandan martın axırına kimi hər iki maşın birlikdə 45 saat prostoy etmişdir. Sol maşın işlərkən saq maşında, saq maşın işlərkən sol maşında xırda təmir işləri aparılmışdır.

Gəminin kecmiş mexaniqi Minayevin maşına səhlənkarçasına yanaşması nətiçəsində tanker fevralda avariyaya uqrayaraq 115 saat prostoy etmişdir.

Maxac-Qala portunda yuk boşaltmaq ucun növbə gözləməkdən əmələ gəlmiş prostoyların nətiçəsində tanker mart ayında iki reys etməmişdir.

***“Qaspi bolşeviki” qəzeti, № 62 (1303),***
***10 may 1939-çu il***

### Qazan təmizləmə işini duzgun təşkil etməli

Vano Strua adına gəmi təmir edən zavodda “Flanderen” gəmisinin qazanını təmizləməkdən ötru gəmi mexaniki V. T. Muravyev mayın 5-də sexə sifariş verir. Lakin iş yerinə, gəmiyə gəlmiş 6 nəfər qazan təmizləyənlər qazanın qomanda tərəfindən təmizləndiyini görərək, prostoy etmişlər. Direqsiya, mexanikin zavoda sifariş verdiyi halda qazanın təmizlənməsi səbəbini muəyyən etməmişdir. “Marqsist” barqazında bu vəziyyət belə olmuşdur. Bundan başqa qazantəmizləyənlərin xususi iş paltarı ilə təmin edilməməsi direqsiyanı narahat etmir. Direqsiya, göstərilən nöqsanların aradan qaldırılmasını çiddi təmin etməlidir.

***Əliyev Xeyrulla,***
***“Qaspi bolşeviki” qəzeti, № 66 (1307),***
***18 may 1939-çu il***

### Gəmilərə vaqtında yuk verilməlidir

Qasptankerin neft produqsiyası daşıyan “Kirov” buqsir gəmisi, aprel ayının 23-də Paris Qommunası adına gəmi təmir edən zavodda əla keyfiyyətlə təmir ediləndən sonra istismara buraxılmışdır.

Gəminin 16 nəfər staxanovcusu və butun ekipaj uzvləri Ucunçu Stalin Beşilliyi adına sosialist yarışına qoşulub, may ayında plandan artıq bir reys etməyi öhdələrinə alaraq, “Qrestyanin” gəmisinin ekipaj uzvlərilə birlikdə “Qulubeqov” gəmisinin butun ekipaj uzvlərini yarışa caqırmışlar.

Gəmi “Qrestiyanin” gəmisini buqsirə göturməklə butun reys planlarını 101 – 109 prosent ödəyib qrafiqdən 22 saat irəlidə idi.

Lakin, Azneftsbıt başçılarının təqsiri uzundən mayın 13-də “Qrestiyanin” gəmisinə vaqtında yuk verilmədiyi ucun hər iki gəmi 9 saat prostoy etmişdir.

Yenə mayın 19-da “Qrestiyanin” gəmisinə 5 saat geç yuk verilmişdir.

Nətiçədə hər iki gəmi hal-hazırda qrafiqdən 22 saat əvəzinə 6 saat irəlidə getməkdədir.

Neftflotun nascalniki Rəhimov yoldaş, gəmilərin yuk gözləmək uzundən prostoy etmələrini və bu prostoyların nətiçəsində may ayı planının ödənilməməyi qorxusunu nəzərdə tutmaqla Azneftsbıt başçıları qarşısında kəskin məsələ qoymalı və daha doqrusu muqavilə əsasında onlardan tələb etməlidir.

Lakin, butun bu maneələrə baxmayaraq “Kirov” buqsir gəmisinin ekipajı neçə olur-olsun may ayı planından artıq bir reys etməyi təmin etmək ucun butun imkanlardan istifadə edir.

***“Kirov” gəmisinin qapitanı***
***Y. A. Şıferman,***
***“Qaspi bolşeviki” qəzeti, № 70 (1311),***
***26 may 1939-çu il***

### “Edison” gəmisi irəlidə gedir

Qasptankerin Edison adına buqsir gəmisinin ekipajı, neft daşınmasında olan yol verilməz geriliyi aradan qaldırmaq ucun butun quvvələri mobilizasiya etmiş, nətiçədə doldurma və boşaltma işində hər reysdə 3 saat vaqta qənaət etmişdir. İndi ekipaj butun reys planlarını 104-dən 112 prosentə qədər ödəyir. Gəmi qrafiqdə göstərilən vaqtından 28 saat irəlidədir.

“Qulibeqov”, “Na vaxte”, “Melniqov”, “Artyom” və “Lozovsqi” gəmiləri qrafiqdən qabaq reys etdikləri ucun daşıma planlarını artıqlıqı ilə ödəyirlər.

Lakin, bir sıra səhlənkarlıqlar nətiçəsində reys planlarını ödəməyən, qrafiqdən biabırçasına geridə qalan gəmilər də vardır.

Paris Qommunası adına zavodun mexaniki sexi tərəfindən “Qaliley” buqsir gəmisinə 4 podşipniki və silindr hissələrini vaqtında təmir edilib verilmədiyi ucun, gəmi 83 saat qrafiqdən geri qalır.

Zavodun təqsiri uzundən bu gəminin qrafiqdən geri qalması 4000 ton neft produqsiyasının az daşınmasına səbəb olmuşdur.

Yenə haman zavoddan istismara buraxılan “Yupiter” buqsir gəmisinin trubaları məsuliyyətsizçəsinə, pis təmir edildiyi ucun, gəmi normal işləmir, “Emba” şalandası ilə birlikdə 46 saat qrafiqdən geri qalır və reys planlarını ödəmir.

“Berezan” gəmisinin təmiri Vano Strua adına zavodda ləngidiyi ucun 13 saat qrafiqdən geri qalır.

***Neftflotun dispetceri Saxarcuq,***
***“Qaspi bolşeviki” qəzeti, № 71 (1312),***
***28 may 1939-çu il***

### Hərəkət qanununu pozmamalı

Mayın 22-də saat 12 ilə 16 arasında mən mostiqdə növbədə idim. Astraxanın qəbul ediçi mayaqını kecmişdik. Qursumuz baş qompas uzrə 330 dərəçə idi. Bizdən irəlidə, saq tərəfdə “Qaqanovic” gəmisi gedirdi.

Surətimiz artıq olduqu ucun biz ona yaxınlaşıb kecməli idik. Dənizdə gəmilərin toqquşmasını xəbərdarlıq etmək qanununa əsasən arxadakı gəmi irəlidəkinə yol verməli və eyni zamanda irəlidəki gəmi ona mani olmamalıdır.

“Molotov” gəmisi arxadan “Qaqanovic” gəmisini qovurdu. Aramızda təxminən 0,5 mil məsafə qalmışdı, “Qaqanovic” gəmisi sola dönərək, qursumuzu irəlidən kəsdi. Biz öz surətimizlə davam etmiş olsaydıq “Qaqanovic” gəmisini arxadan vurardıq.

Biz öz surətimizi azaltmaqla hər iki gəmini təhlukədən xilas etdik.

Qasptankerin nacalniqi Matyuşov və Bakı portu qapitanı Qasımov yoldaşlar dəniz qanununa əməl etməyərək “Molotov” gəmisinin qursunu pozan və onu öz surətiniu azaltmaqa məçbur edən “Qaqanovic” gəmisi qapitanının köməkcisini məsuliyyətə çəlb etməlidir.

***“Molotov” gəmisi qapitanının***
***3-çu köməkcisi İbrahimov,***
***“Qaspi bolşeviki” qəzeti, № 74 (1315),***
***4 iyun 1939-çu il***

### “Molotov” tankeri reyddə

May ayının 19-u aydınlıq geçə cekilirdi. Bu vaqt o da növbəni qəbul etdi. İlk vəzifə - yanaçaq yuku ilə aqırlaşan “Molotov” tankerini ziq-zaq dəniz yolu xətti ilə təhlukəsiz aparmaq və qarşıdakı yolu qrafiqdən 5 saat əvvəl getmək idi.

“Molotov” tankerinin qapitan köməkcisi Yaqun İbramov yoldaş çiddi vəziyyət alaraq, - durbinlə uçsuz-buçaqsız dənizin hər tərəfini seyr edir və dənizin uzərini qalın, aq dalqalar ilə örtən dumandan qorxmayıb, gəmini çiddi surətlə aparırdı.

Cox cəkmədən duman dalqaları suyu yalayaraq cəkildilər.

Gunəş yuksəklərə qalxır, öz sarımtıl şualarını, getdikcə sakitləşən dəniz dalqaları uzərinə səpələyirdi.

Qomanda heyətinin hər bir uzvu özunə aid olan işlə çiddi məşqul idi. Qomanda heyətinin butun uzvlərinin aqzında – “namusla calışmaq qələbəni təmin edir. Biz, Qaspi dənizində uzən gəmilərin qabaqçılları sırasına kecməliyik” sözləri gəzirdi.

Hələ may ayının 20-nə qədər bu gənç qapitanın başcılıqı ilə hərəkət edən “Molotov” tankeri 6 reysdə 54.600 ton neft daşımışdır ki, bu da tankerin daşınma planının 112 prosentini təşkil edir.

İbramov Yaqun deyir ki, ölkəmiz ucun neft daşımaq planını kəsirsiz və artıqlaması ilə yerinə yetirmək, 1939-çu ildə su transportunu xalq təsərrufatının qabaqçıl sıralarına cıxarmaq şərəfli vəzifəmizdir. O, butun yoldaşlarını bu vəzifənin yerinə yetirilməsi uqrunda qəti mubarizəyə caqırır.

Bir az kecmədən tanker reyd postunda dayandı.

Reyddə, “Molotov” tankerini gözləyən şalandalar tez tankerin saq və sol tərəfinə yan aldı. Bu yanaçaq yuku surətlə boşaldıldı, qrafiqdə göstərilən vaqta 5 saat qənaət edildi. May ayının 21-də 43-çu körpuyə yan alan “Molotov” tankeri bu dəfə də gənç qapitan köməkcisi Yaqub İbramovun rəyi ilə 9122 ton əvəzinə 9384 ton neft yuku göturərək, reysə başladı.

***M. Çəfərov,***
***“Qaspi bolşeviki” qəzeti, № 75 (1316),***
***6 iyun 1939-çu il***

### Bir reys normadan artıq

Qasptankerin neft produqtu daşıyan “Naxcıvan” gəmisinin staxanovcuları sosializm yarışına qoşularaq may ayı neft daşınması planını 112,5 prosent yerinə yetirmişlər.

Plan uzrə gəmi may ayında 8 dəfə Maxac-Qalaya, bir dəfə Qrasnavodsqə getməli idi. Gəminin staxanovcu ekipajı isə bu normadan bir dəfə artıq reys etmişdir.

Tək-tək staxanovcular da öz uzərinə göturdukləri təəhhudləri yerinə yetirirlər. Bunlardan mexaniq Savinqov, qapitanın birinçi muavini Stepanov, bosman Mioxin, rulevoy Resov yoldaşları və sair göstərmək olar.

Gəmidə partiya qomsomolı və həmkarlar təşkilatları qultur və kutləvi işlərin yaxşı qurulması, əmək intizamının möhkəmlənməsi uqrunda calışırlar. Ölkə mudafiəsi işlərini daha da çanlandırmaq ucun butun ekipaj uzvləri calışır.

Ekipaj uzvləri öz texniki biliklərini daha da yuksəldirlər.

Texminimum dərnəyinin məşqələlərində 13 nəfər ekipaj uzvu iştirak edir. Bu işə qapitanın birinçi muavini Stepanov, mexaniq muavini Polevoy rəhbərlik edir, məşqələlər muntəzəm kecir.

***“Qaspi bolşeviki” qəzeti, № 80 (1321),***
***16 iyun 1939-çu il***

### Qadrlara belə əlaqə bəslənmək olmaz

Bakı dəniz texniqumunda 3 eleqtrotexnik qruppası vardır. Bunlardan ikisi rus, biri isə Azərbayçan seqtoru uzrədir.

Eleqtrotexniq şöbəsində oxuyan studentlər II sinfi qurtarandan sonra 2 ay zavodlarda, III sinfi qurtaranlar 3 ay tankerlərdə, teploxodlarda praqtiqa kecməlidirlər.

Studentlər iyunun birindən etibarən praqtiqaya getməlidir. Ançaq bu vaqta kimi 19 nəfər studentlərə teploxodlarda, tankerlərdə yer vermişlər. Qalanları praqtiqa gunlərini boş-boşuna kecirirlər.

Hələ praqtiqaya bir necə ay qalmış dəniz texniqumun praqtiqa şöbə mudiri Şapoşniqov yoldaş Qasptankerin qadr şöbəsində teploxodlarda praqtiqa edəçəy studentlərin nə vaqt praqtiqa edəçəkləri haqqında siyahını təsdiq etdirmişdir.

Qadr şöbəsi texniqum studentləri ucun təsdiq etdiyi yerlərə studentlər göndərmişlər. Odur ki, Bakı dəniz texniqumu studentləri təyin edildikləri gəmilərə praqtiqaya gedəndə orada onlara yer yoxdur deyə geri qaytarırlar.

Qasptankerin nacalniki studentlərə belə əlaqə saxlayanlar haqqında lazımi tədbir görməlidir.

***Şirinov İsmayıl,***
***“Qaspi bolşeviki” qəzeti, № 81 (1322),***
***18 iyun 1939-çu il***

### Kutləvi-tərbiyə işlərini canlandırmalı

Zaqfederasiya adına zavodun bəzi sexlərində əmək intizamının biabırçasına pozulması halları davam etməkdədir. Mart ayında zavod uzrə 66 nəfər işə gecikən olduqu halda, may ayında 73 nəfər olmuşdur. Proqul edənlərin sayı da azalmaqdansa daha da artmışdır. Təkçə mexaniki sexdə may ayında 9 nəfər işə geçikən və 30 nəfər proqul edən olmuşdur.

İstər zavod partiya, həmkarlar təşkilatları və istərsə də sex təşkilatları, sexdə işləyənlər arasında siyasi – tərbiyəvi işləri yaxşı aparmırlar. Əmək intizamının pozulması səbəblərindən biri də budur.

Bu sexdə işə geçikənlərlə tərbiyəvi söhbətlər edilməmişdir. Bunlara baxmayaraq, cilingər köməkcisi Zaytsev işə geçikərkən, sex nacalnikinin muavini Morozov yoldaş onunla məşqul olmuşdur. Zaytsev bu yoldaşlıq tapşırıqından sonra, həmişə işə vaqtından qabaq gəlir və iş saatlarından səmərəli istifadə edərək, istehsalat tapşırıqını 100 prosentdən artıq, yuksək keyfiyyətlə yerinə yetirir.

### Dənizdə hadisə

Baqırov adına paraxod 700 miniklə Qrasnovodsq portundan Bakıya gələrkən yolda şiddətli fırtınaya duşur. Dalqalar gəmini bir aqac parçası kimi atıb-tutmaqa başlayır, su gəminin göyərtəsindən aşıb kecir. Fırtınanın lap qızqın vaqtında paraxodun qazanının inzeqtoru xarab olur və paraxod yolunu itirir. Avariya təhlukəsi qarşıya cıxır.

Gəminin mexaniqi, köhnə dənizci Yaşin yoldaş və cilingər Sapletski yoldaş özlərini itirməyərək təmirə başlayırlar. Onlar ən cətin bir şəraitdə gəmini xilas etmək uqrunda fədakarlıqla mubarizə edirlər. Adamlarla təbiət arasında mubarizə beş saat davam edir. Bu mubarizədə adamlar qalib gəlir. İnzeqtor qayrılır və gəmi duz yolunu tutaraq saq-salamat Bakıya gəlib catır.

***“Qaspi bolşeviki” qəzeti, № 108 (1349),***
***12 avqust 1939-çu il***

### “Neva” şalandasının ekipajına yaxından kömək etməli

Qaspflotun quru yuk daşıyan “Neva” şalandasında 10 nəfər calışır.

Şalandada 1939-çu il yanvar ayından avqust ayına qədər 5 qapitan dəyişmişdir. Şalandada bir sıra hissələrin təmirə ehtiyacı olduqu halda, təmir edilməmişdir.

Şalandada proqula və işə gecikməyə yol verilmişdir.

Quru yuk gəmiciliyinin və Bakı portunun yerli təşkilatları “Neva” şalandasında işləri yenidən qurmaqda yeni qapitan Huseynov Abbas yoldaşa kömək etmirlər.

Butun bu kimi hallar uzundən şalanda öz planını ödəmir.

O, iyul ayında plan uzrə 4 dəfə “İlic” portuna getməli idi. Lakin iyulda və avqust ayının 22-nə qədər 4 dəfə reys edilmişdir.

Avqustun 6-dan 11-nə “İlic” portunda, avqustun 12-dən 22-nə qədər Bakı portunda yuk ilə dolu, körpudə dayanıb prostoy etmişdir.

Bu barədə Qaspflotun qruppa dispetceri Zibbelinov yoldaşa dəfələrlə deyilmişsə də, tədbir görməmişdir.

Şalandada olan 2 partiya uzvu ilə hec bir iş aparılmır. Qomandada “YIQ (b)P Tarixinin Qıssa qursu”-nun öyrənilməsi təşkil edilməmişdir.

Şalandanın qapitanı Huseynov yoldaş göstərir ki, bəzi vaqt şalandamızın harada olmasını da yoxlayan olmur.

Şalandanın yuk ilə 25-çi körpudə 12 gun dayanması buna yaxşı subutdur.

Qomandanın ayrı-ayrı uzvləri biyabırcı prostoylara yol verməmək və tezliklə qabaqçıllar sırasına cıxmaq ucun öz öhdələrinə bir sıra təəhhudlər goturmuşlər.

Qaspflotun və rayon həmkarlar qomitetinin işciləru bu işdə qomandaya yaxından kömək etməlidirlər.

**Babayev,**
**“Qaspi bolşeviki” qəzeti, № 114 (1355),**
**24 avqust 1939-çu il**

# 60-DAN ÇOX XARİCİ GƏMİ BATIRILIB

***İndoneziyanın hökumət orqanları ölkəyə məxsus ərazi sularında qeyri-qanuni ovla məşğul olan 60-dan çox gəmini batırıb.***

"The Straits Times" qəzetinin yazdığına görə, gəmilərin batırılması İndoneziyanın müstəqilliyini qazanmasının 71-ci ildönümü ilə əlaqədar təşkil edilib.

Dəniz İşləri və Balıqçılıq Təsərrüfatı Nazirliyinin rəsmi nümayəndəsinin bildirdiyinə görə, əməliyyat səkkiz rayonda həyata keçirilib. Nümayəndə qeyd edib ki, bu, İndoneziya xalqı üçün hədiyyədir və hökumətin qanunlara necə hörmətlə yanaşdığını bir daha təsdiq edir.



Bu, hökumət orqanlarının qanun pozan gəmiləri cəzalandırılması ilə əlaqədar ilk hal deyil, lakin bu dəfə gəmilərin hansı ölkələrin bayrağı altında üzdüyü barədə məlumat verilməyib. Əvvəllər İndoneziyada Vyetnama, Çinə və Filippinə məxsus olan gəmilər batırılıb. Belə hal xüsusən Çin tərəfinin kəskin tənqidi ilə qarşılanıb.

Ümumilikdə 2014-cü ildən bu günədək İndoneziyanın hökumət orqanları tərəfindən bu ölkəyə məxsus ərazi sularında qeyri-qanuni ov edən 170 xarici gəmi batırılıb. İndoneziyanın dəniz işləri naziri Susi Puciastuti beynəlxalq konfransların birində qeyri-qanuni balıq ovunu mütəşəkkil transsərhəd cinayətkarlığı ilə bərabər götürməyi təklif edib. Nazirin sözlərinə görə, bu məsələ bütün dənizyanı dövlətlər üçün ciddi iqtisadi problemdir.

Cakartanın bildirdiyinə görə, ölkə bu cinayətlərdən hər il 20 milyard dollar ziyan çəkir.

*Vüqar Ağayev*



## GƏZİNTİ GƏMİLƏRİ TOQQUŞUB

***Yunanıstanda iki gəzinti gəmisinin toqquşması nəticəsində azı 3 nəfər həlak olub.***

Euronews telekanalının verdiyi xəbərə görə, faciə Afinadan 30 kilometr cənub-qərbdə, Egina adası yaxınlığında baş verib.

Hadisə nəticəsində, həmçinin 3 nəfərin də xəsarət aldığı bildirilir. Ümumilikdə isə gəmilərdə - kater və sürət gəmisində təxminən 20 nəfərə qədər sərnişin olub.

Qəzanın baş vermə səbəbləri araşdırılır.

## BOSFOR BOĞAZINDA GƏMİLƏRİN HƏRƏKƏTİ MÜVƏQQƏTİ DAYANDIRILIB

***Avqustun 17-də yük gəmisinin Türkiyənin sahil mühafizə xidmətinə məxsus katerlə toqquşmasından sonra Bosfor boğazında hərəkət müvəqqəti olaraq dayandırılıb. Bu barədə məlumat GAS operatorunun saytında yerləşdirilib.***



Anadolu informasiya agentliyi xəbər verir ki, toqquşmadan sonra sahil mühafizə xidmətinin kateri batıb. Hadisə nəticəsində 3 hərbçinin həlak olduğu bildirilir. Daha 5 hərbçi isə axtarış əməliyyatı nəticəsində xilas edilib.

Hadisənin başvermə səbəbləri araşdırılır.

## 900 MİN LİTR DİZEL YANACAĞI DAŞIYAN TANKER OĞURLANIB



***Göyərtəsində 900 min litr dizel yanacağı olan tanker Malayziyaya məxsus sularda oğurlanıb. Bu barədə "New Straits Times" nəşri Malayziya hökumət orqanlarına istinadla məlumat yayıb.***

Qəzetin verdiyi məlumatda bildirilir ki, tanker hazırda Batam adaları yaxınlığında, İndoneziyaya məxsus sulardadır. Oğurlanmış yükün ümumi məbləği 1,57 milyon rinqit (392 min dollardan çox) təşkil edir.

Malayziyanın hökumət orqanları tankerin kim tərəfindən oğurlandığını hələlik dəqiqləşdirə bilməyib. Hadisənin başvermə səbəbləri araşdırılır.



## HƏRBİ GƏMİLƏR ALIB

***Filippin Cənubi Çin dənizində təhlükəsizlik və hüquq-mühafizə işlərinin yaxşılaşdırılması üçün Yaponiyadan 10 hərbi gəmi alıb.***

"Reuters" agentliyi xəbər verir ki, dənizin bu hissəsindən hər il 5 trilyon dollar dəyərində müxtəlif məhsullar daşınır. Eyni zamanda, burada böyük neft və qaz yataqları mövcuddur.

## SƏYAHƏT BƏRƏSİNDƏ BAŞ VERƏN YANĞIN NƏTİCƏSİNDƏ 150 NƏFƏR XƏSARƏT ALIB



***Karib dənizində Birləşmiş Ştatlarla assosiasiya olunan Puerto-Riko ada dövlətinin sahilləri yaxınlığında "Caribbean Fantasy" səyahət bərəsində yanğın baş verib. Hadisə nəticəsində 150 nəfərin müxtəlif dərəcəli xəsarətlər aldığı bildirilir.***

Euronews telekanalı xəbər verir ki, yanğın mühərrik bölməsində yanacaq şlanqının cırılaraq yanması ilə başlayıb. Sonradan alov 170 metrlik bərənin digər hissələrinə yayılıb. Nəticədə gəmi sahildən təxminən 730 metr məsafədə saya oturub. Aralarında sərnişinlərin və heyət üzvlərinin olduğu 500 nəfərdən çox insan xilasedici gəmi və xüsusi qayıqlar vasitəsilə təxliyə edilib.

İnsidentin baş verdiyi əraziyə yaxın olan San-Xuan şəhərində yaralılara yardım göstərmək məqsədi ilə mobil tibb məntəqələri yaradıb.

## QAYIĞIN QƏZAYA UĞRAMASI NƏTİCƏSİNDƏ HƏLAK OLANLAR VAR



***İndoneziyanın qərbində göyərtəsində 17 nəfərin olduğu qayığın qəzaya uğraması nəticəsində 10 nəfər ölüb. Bu barədə ölkənin hərbi-dəniz qüvvələri məlumat yayıb.***

Qəza nəticəsində daha iki nəfərin xəsarət aldığı, beş nəfərin isə itkin düşdüyü bildirilir. Hadisənin baş vermə səbəbləri barədə məlumat verilmir.

## AÇIQ DƏNİZDƏ 38 SAAT QALAN ÇİNLİ QADIN MÖCÜZƏ NƏTİCƏSİNDƏ XİLAS OLUB

***Səyahət gəmisinin göyərtəsindən yıxılan çinli turist qadın 38 saat açıq dənizdə qalıb.***



Interfax informasiya agentliyi xəbər verir ki, Şanxay şəhərinin 32 yaşlı Fen adlı sakini Yaponiya və Cənubi Koreyaya gedən kruiz gəmisində istirahət edirmiş. Dəniz mənzərəsindən vəcdə gələn turist qadın göyərtədən aşağıya çox əyildiyindən müvazinətini itirərək təxminən yeddi mərtəbəli ev hündürlüyündən dənizə düşüb.

Onunla birlikdə səyahət edən valideynləri qızlarının yoxa çıxmasından yalnız bir neçə saat sonra xəbər tutublar. Yeməksiz və susuz, xilasedici jileti olmayan turist qadın iki gün açıq dənizdə qalıb. Xoş təsadüf nəticəsində balıqçı qayığına rast gələn Fen xilas olub. O, böyük hündürlükdən suya düşməsinə baxmayaraq, heç bir xəsarət almayıb.

## YARIZARAFAT, YARIGERÇƏK

**Yaxşı ki, keyfimə ancaq soğan doğrayırlar. Heç olmasa vitamini çoxdur.**

**Həyasızlığın ən yüksək dərəcəsi nə qədərdir?**

**Ailə həyatı yüksək faizli kreditdən pisdir. Ömrün boyu ödəməli olursan.**

**Bəzi adamları yola gətirmək təzə yol çəkməkdən çətindir.**

**Hər kəs, hətta savadsız adam da alın yazısını özü yazır.**

**Sözünün əvvəli ilə axırı bilinməyən söhbətə ortadan başlasa, daha yaxşı olar.**

**Niyə stolu olanların da çoxunun çörəyi dizləri üstə olur?**

**Bir "molodes"ə adamın üzünə durmasalar, təşəkkür də pis deyil.**

**Öz ağıllarından başqa adamlar niyə hər şeydən narazıdırlar?**

**Öz aramızda, latın qrafikalı əlifbaya keçəndən çox adam çox adamın kitabını oxumur.**

**Adam var, hər həqiqətimə qarşı yüz yalan çıxarır.**

**Fil qulağında olmasa, harda rahatdırsa, yat.**

**Rənglərdən başı çıxmadığı üçün ağına-bozuna baxmır?**

**Utanandan oğru olmaz.**

**Bilik və ağıl qoşa qanaddır. Biri olmayanda uçmaq xəyalına düşmə.**

**Oxuyanların arasında ən pis oxuyan bizə oxuyanlardır.**

**Üz üzdən utanmayan yerdə düz düzdə qalar.**

**Qoyunu qurda tapşırmasaydıq, ət belə bahalaşmazdı.**

**Deyəsən Allahım da onun-bunun sözünə inanır. Yoxsa işim pis getməməliydi.**

**Qarın davaları çox davaları unutdurub.**

**Hirsli başda ağıl olmaz o demək deyil ki, hirsli olmayanların hamısı ağıl dəryasıdır.**

**Deyirəm daş nə qədər baha olsa, yaxşıdır. Heç olmasa onun-bunun bostanına az atarlar.**

**Texnikaları yaxşı inkişaf etmədiyi üçün bəzi yerlərdə "dovşanı araba ilə tuturlar"?**

**Duz, ziyanlı olduğu üçün bəzilərinin çörəyinin duzu yoxdur?**

**Sən Allah, bitəndə göydən lap 3 min alma da düşsə, mənə nağıl danışma.**

**Bəzi şeylər mənə çatmadığı üçün mənə heç nə çatmır?**

**Gəmiçi ilə nə dənizdə dalaş, nə sahildə.**

**Doğrudan hərə öz çörəyini yeyir? Şəxsən mən çörək zavodunun bişirdiyi çörəyi yeyirəm.**

**Ömründə at görməyənlərin başına harda at təpib?**

**Öz aramızda qalsın. Son vaxtlar yanan evlərin çoxu yalançıların deyil a...**

**Göz xəstəliyi olmasa, uzaqdangörmə yaxşı şeydir.**

**Yaşamaq yanmaqdırsa, onda məndən yaxşı yaşayan yoxdur ki...**

**Yalanın axırına çıxmasaq, yalan dünyanın axırına çıxacaq.**

**Başından yekə danışanlar təkcə başının ölçüsünü bilməyənlərdir?**

**Bəziləri işin qulpunu tapa bilmədikləri üçün bir işdən yapışmırlar?**

**Adam var, təyyarəsi də olsa, yenə piyadadır.**

**Bəziləri yaxşıların arxasınca danışmasalar, görəsən nə danışarlar?**

**Şirin şeylər xoşladığımız üçün şirin vədlərə inanırıq?**

**İtin həyasına qalsa, gərək bütün məscidlərin qapısı bağlana.**

**Belə çıxır ki, ancaq narkomanlar başqasının damarını yaxşı tuta bilirlər?**

**Gözlərimdən xoşları gəldiyi üçün çox adam gözümün içinə baxa-baxa yalan danışır?**

**Xəyalım məndən çox gəzir – min yerə gedir.**

**Heç... haramın yeridir?**

**Bugünkü "dostlar"ımın çoxu sabahkı düşmənlərimə oxşayır.**

**Görəsən şəxsiyyəti olmayana da "Şəxsiyyət vəsiqəsi" niyə verirlər?**

**Bir həsir, bir Məmmədnəsir olanla heç Məmmədnəsirin da arası olmur.**

**Nə qədər humanist olsan da, şeytanın qıçını sındırmaq lazımdır.**

**Yumurtadan yun qırxanlar gör qoyundan nələr alarlar?!**

**Çox adam yatmağa yeri olmadığı üçün fil qulağında yatır?**

**Bəzi çobanlara baxanda, qurda min şükür.**

**Yer olmadığı üçün çox adam özünü gözə soxur?**

**Yaxşı ki, sovet hakimiyyəti özü yıxıldı. Yoxsa "zırhazırı" hələ də kəsilməmişdi.**

**Deyirəm nə ola, adamın pulu da ola, adamlığı da.**

**Hamı "professorluq" edəndən elm də gözdən düşüb.**

**Ən yaxşı dostum vicdanımdır. Bilirəm ki, mən atmasam, o, heç vaxt məni atmaz.**

**Oturan yerdə işə düşmək istəmədiyi üçün çox adam yerində oturmur?**

**Mənim üçün ağzını açmamış da "içi görünən" adamı dinləməkdən əzablı heç nə yoxdur.**

*Rasif TAHİROV*

## GƏLƏCƏKDƏ SU DAHA ÇOX ƏRAZİLƏRİ "ZƏBT" EDƏCƏK

***NASA alimləri bəyan ediblər ki, bir əsr ərzində Yer kürəsində gələcək nəslə mənfi təsir göstərəcək əhəmiyyətli dəyişikliklər baş verəcək.***

Alimlərin sözlərinə görə, həmin dövrdə qlobal istiləşmə zamanı buzlaqların sürətli əriməsi müşahidə olunacaq. Bunun nəticəsində dünya okeanında suyun səviyyəsi qalxacaq və bu da suyun daha çox əraziləri "zəbt" edəcəyinə gətirib çıxaracaq.



Qlobal istiləşmə tornado, meşə yanğınları və digər kataklizmlərə də səbəb olacaq. Alimlərin fikrincə, zaman keçdikcə insanlar üçün bu hadisələr adi hal alacaq. Quru hava şəraiti səbəbindən bəzi ərazilər yaşamaq üçün yararsız hala gələcək.

Lakin alimlər xüsusi vurğulayırlar ki, bütün hesablamalara baxmayaraq, atmosferdə karbon qazının miqdarını azaldan yeni texnologiyalar yaradılarsa bu vəziyyəti dəyişdirmək mümkündür.



## NƏ YORULUR, NƏ DƏ MAAŞ TƏLƏB EDİR

***Bəzilərinin arzuladığı, digərlərinin isə qorxduğu süni intellekt hər halda bəşəriyyət üçün müəyyən qədər təhlükəlidir, çünki onun ucbatından insanların bir hissəsi işsiz qalacaq.***

"planet-today.ru" saytı xəbər verir ki, "Telecom Daily" ekspertlərinin fikrincə, on il sonra süni intellekt onlayn nəşrlərdə jurnalistləri tam əvəz edəcək. Bundan sonra vəkillər və musiqiçilər işsiz qalacaq.

"Telecom Daily"nin rəhbəri Denis Kuskov deyir: "İndinin özündə "Washington Post" nəşrinin redaksiyasında materialların hazırlanmasında robotların köməyindən fəal istifadə edilir. Söhbət Rio-de-Janeyroda keçirilən Olimpiya Oyunları ilə bağlı xəbərlərin axtarışı məqsədi ilə informasiya məkanını skanerdən keçirən, sonra məlumatları nizamlayan və onları emal edən proqramdan gedir".

"Washington Post" üçün materiallar tərtib edən robotun fantaziyası yoxdur və bədii cəhətdən olduqca zəif xəbərlər yazır. Amma idman xəbərləri elə qısa və quru olmalıdır. Odur ki, proqram öz vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Üstəlik, insandan fərqli olaraq, süni intellekt yorulmur, maaş tələb etmir və həmişə sabit nəticə verir. Bir sözlə, o, ideal işçidir.

## BİZDƏN DEMƏK…

***Yəqin ki, hər bir insan ömründə azı bir dəfə emosional stress vəziyyətində olub. Stressə məruz qalmaq nevrozların və ya depressiya vəziyyətinin inkişafı ilə nəticələnə bilər. Vaxtaşırı yaranan stressi xroniki xəstəlik forması hesab etmək olar. Buna görə də fəsadlar yaranmasının qarşısını almaq üçün onu müvafiq dərmanların köməyi ilə müalicə etmək lazımdır.***



healthvesti.com saytının yazdığına görə, stress halları tək-tək baş verirsə, ondan xilas olmaq üçün dərman vasitələrindən fərqli üsullardan istifadə etmək olar. Orqanizmin müdafiə qüvvəsini artırmaq, sinir sistemini möhkəmlətmək və tonusu yüksəltmək üçün mütəmadi olaraq parkda gəzişmək, səhər gimnastikası ilə məşğul olmaq, velosiped sürmək məsləhətdir. Bu cür fəal istirahətdən sonra yaxşıca yatmaq lazımdır.

Rasional qidalanma insanın xoş əhvalını təmin edir, orqanizmin stressə qarşı davamlılığını artırır. Təzə meyvə və tərəvəzə, vitaminlər və faydalı elementlərlə zəngin qida məhsullarına üstünlük vermək, spirtli içkilərdən və zərərli yeməklərdən imtina etmək, kifayət qədər maye qəbul etmək, hərdənbir şokolad, dondurma və digər şirin məhsullardan istifadə etməklə öz əhvalını yüksəltmək vacibdir. Bu qaydalara riayət edilməsi stressdən etibarlı müdafiə olunmağı təmin edir.

Sevimli işlə məşğul olmaq həmişə neqativ emosiyalardan yaxa qurtarmağa kömək edir. Rəsm çəkmək, mahnı oxumaq, kulinariya ilə, digər yaradıcılıq növləri ilə məşğul olmaq, habelə otaq bitkilərinə və ya ev heyvanlarına qulluq etmək stresslə mübarizəyə kömək edən əla vasitələrdir.

Stressi aradan qaldırmaq üçün psixoloqla və ya yaxın dostunuzla söhbət edin. Bu cür ünsiyyət insanın psixoloji problemlərini anlamağa, ona əziyyət verən suallara cavab tapmağa kömək edir. Doğma və yaxın insanlarla görüşlər əhvalınızı xeyli yaxşılaşdıra bilər.

## QATAR ÇAYA DÜŞÜB



***Çilinin Araukanii rayonunda Tolten çayı üzərindəki dəmiryol körpüsü dağılıb.***

Euronews telekanalı xəbər verir ki, hadisə yük qatarının körpünün üzərindən keçdiyi zaman baş verib.

Konstruksiyanın dayaqları ağır qatara tab gətirməyərək dağılıb. Çaya aşan qatardakı çənlərdə kimyəvi maddələrin olduğu bildirilir. Hökumət qəza nəticəsində ətraf mühitə heç bir zərərin dəymədiyini iddia edir.

Körpünün bərpa olunaraq yenidən istifadəyə verilməsinə azı bir ay vaxt lazım gələcək.

## Sualtı gəmidə aparılan tədqiqatlar canlı efirdə nümayiş etdirilib



***1941-ci ilin dekabrın 11-də amerikalılar tərəfindən vurulan yaponlara məxsus sualtı "kamikadze" tipli gəminin qalıqlarının xüsusi sualtı qurğular vasitəsilə tədqiq olunması canlı efirdə nümayiş etdirilib.***

lenta.ru saytı xəbər verir ki, bu barədə veriliş "LiveScience" (canlı elm) proqramı tərəfindən yayımlanıb.

"Hayate" adlı yapon gəmisi İkinci Dünya müharibəsində amerikalılar tərəfindən məhv edilən ilk gəmi olub.

Tədqiqatçılar "Okeanos Explorer" gəmisinin ekspedisiyasını hələ də davam etdirir.



## "İnsan dişli" balıq

***ABŞ-ın Miçiqan ştatındakı Sent-Kler və Port-Qurone göllərində dişləri insan dişinə bənzəyən bir neçə ekzotik balıq tutulub.***

"Vista News" saytı xəbər verir ki, adi qarmaqla tutulan balıqların bir neçəsi mütəxəssislərə verilib. Bu canlıların dişləri piranya balığının dişini xatırlatsa da, diş ucları sivriləşmədiyi üçün insan dişinə bənzəyir. Alimlər əvvəllər belə bir balığa rast gəlmədiklərini bildiriblər. Təbii Sərvətlər Departamentinin apardığı tədqiqatlar nəticəsində bu canlının piranyaya bənzər "vegetarian" qırmızıdöş paku olduğu müəyyən edilib. Bu balıqlar yalnız bitki ilə qidalanır, güclü dişləri isə onlara qoz-fındıq üyütməkdə belə kömək edir. Doxsan santimetrə qədər böyüyən bu canlıların çəkiləri 25 kiloqramadək arta bilir.

Mütəxəssislər soyuq iqlim şəraitini nəzərə alaraq bu balıqların Miçiqan sularında yaşamasının mümkün olduğunu bildiriblər. Onların buraya yerli sakinlər tərəfindən gətirildiyi ehtimal olunur. Bildirilir ki, dünyanın nadir balıqlarını toplayan akvarium həvəskarları arasında pakuya böyük tələbat var.




## Yaşlı insanlar yuxuda danışırlarsa…

***Alimlərin fikrincə, planetimizin orta hesabla hər 20 sakinindən biri yuxuda danışır.***



"healthvesti.com" saytı bildirir ki, yuxuda danışmaqla bağlı tədqiqatçıların apardığı unikal eksperiment bütün həkimləri təəccübləndirib. Tibb işçiləri müşahidələr zamanı insanı yuxuda danışdıracaq başlıca səbəbi aşkar edə biliblər. Mütəxəssislər müşahidə ediblər ki, insanlar xüsusilə uşaq yaşlarında danışırlar ki, bu da tam normaldır. Lakin yaşlı adamlarda bu cür davranış beyin mexanizminin pozulmasına gətirib çıxara bilər. Zəif və güclü cinsin bəzi nümayəndələri gecə yuxuda aydın danışırlar. Bu, insanın yuxunun dərin fazasında olmamasını göstərir. Aydın olmayan danışıq delta yuxusu zamanı baş verir.

Tibb işçiləri əmindirlər ki, yuxuda danışmaq hansısa patologiyaya aid deyil. Bu hal yayılıb və insan sağlamlığı üçün təhlükə törətmir. Nadir hallarda kişi və qadınlarda epilepsiya kimi fizioloji xəstəlik yarana bilər.

## ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Dəniz Nəqliyyatı Donanmasının Texniki şöbəsinin mühəndisi

**Vahid Məhəmmədəli oğlu Xasıyevin**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

Dəniz Nəqliyyatı Donanmasının rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Texniki şöbənin mühəndisi

**Vahid Məhəmmədəli oğlu Xasıyevin**

vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.




BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2350